Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 274 (8001) ÇƏRŞƏNBƏ, 5 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Azərbaycan mədəni irsinin UNESCO-da növbəti zəfəri

Xalqın qədimliyini, zənginliyini təsdiq etmək üçün çox zaman tarixi mənbələrə, elmi araşdırmalara, çoxşaxəli tədqiqatlara müraciətə ehtiyac qalmır. Çünki nəsildən-nəslə ötürülən adət-ənənələr, abidələşən mənəvi və maddi dəyərlər bunu təsdiq edir. Xalqın ruhunu, özünəməxsus düşüncələrini əks etdirdiyindən onları nə mənimsəmək, nə də danmaq mümkündür. Azərbaycan da belə qədim, zəngin, heyranedici mədəni irsi ilə hər zaman dünyanın diqqət mərkəzindədir.

## Ölkəmiz üçün daha bir əlamətdar gün

Bu günlər Şərqi Afrikada, Hind okeanında kiçik ada-dövlət olan Mavriki Respublikasının paytaxtında - Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyası keçirildi.

Noyabrın 26-dan dekabrın 1-dək davam edən sessiyada Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Ramiz Həsənovun başçılığı ilə nümayəndə heyəti iştirak etdi.

Sessiyanın gündəliyinə Hökumətlərarası Komitənin cari və gələcək fəaliyyəti ilə əlaqədar, UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə reprezentativ siyahısına və Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına salınması nəzərdə tutulan nominasiyaların müzakirəsi, milli hesabatların qəbulu və başqa məsələlər daxil edilmişdi.

Tədbirin üçüncü iş günü ölkəmiz üçün xüsusilə əlamətdar oldu. Belə ki, zəngin mədəni irsimizlə bağlı daha iki nümunə UNESCO-nun müvafiq siyahılarına salındı.

Ölkəmizin təqdim etdiyi “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” nominasiya faylı noyabrın 28-də günün birinci yarısında UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edildi. Bu sevindirici hadisə ilə bağlı Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirliklərinin birgə bəyanatı yayıldı. Bəyanatda həmin nominasiya sənədinin Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin birgə əməkdaşlığı ilə təqdim olunduğu vurğulandı. Namizədlik sənədinin Naxçıvan adı ilə təqdim edilməsində əsas məqsəd respublikamızın bu qədim və tarixi regionunda yaşayan əhalinin ənənəvi mədəniyyətini, xalq yaradıcılığını dünya miqyasında tanıtmaq, həmçinin bu ənənələri UNESCO səviyyəsində qorumaqdır.

Ölkəmizin digər mədəni irs namizədləri ilə bağlı olduğu kimi, “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” nominasiyasına Ermənistanın təxribat xarakterli cəhdlərinin də qarşısının alındığı, Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları tərəfindən sessiyadan öncə müvafiq iş aparıldığı və respublikamızın nümayəndə heyəti tərəfindən sessiya zamanı Ermənistan tərəfinə layiqli cavab verildiyi bəyanatda qeyd edildi.

Noyabrın 28-də günün ikinci yarısında isə Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə təqdim etdiyi “Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” nominasiya faylının çoxmillətli mədəniyyət nümunəsi kimi UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına salınması barədə qərar qəbul olundu.

Bu barədə Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirliklərinin birgə bəyanatında “Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” adlı çoxmillətli mədəniyyət nümunəsinin Azərbaycanda, Türkiyədə və Qazaxıstanda birlik, bərabərlik və müxtəlifliyi, eləcə də xalqlarımızın ailə dəyərlərini, qadının cəmiyyətdə rolu, qonaqpərvərlik və ədalət prinsiplərini təbliğ etdiyi diqqətə çatdırıldı. Bəyanatda vurğulandı ki, Ermənistan nümayəndəsinin bu dəfə də “Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” adlı çoxmillətli mədəniyyət nümunəsinin Azərbaycana dair hissəsinə qarşı əsassız çıxışı nəticəsiz qaldı. Nümayəndə heyətimiz Ermənistan tərəfinin qeyri-konstruktiv və yersiz mövqeyinin yolverilməz olduğunu bir daha nəzərə çatdıraraq Azərbaycanın bu çoxmillətli nominasiyanın tərəfi olmaqla regional əməkdaşlığa və ortaq mirasa sahib olan ölkələrlə mədəniyyətin bölüşülməsi faktoruna önəm verdiyini və bununla da UNESCO-nun xoşməramlı prinsiplərinə sadiqliyini nümayiş etdirdiyini bildirdi.

Ardı 7-ci səh.

# 20 ölkədən 230 şirkət

## “Bakutel-2018” sərgisi dünyanın diqqət mərkəzindədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - “Bakutel-2018” ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə dövlət başçısına və xanımına sərgi barədə məlumat verdi.

Bildirildi ki, builki sərgidə 20 ölkədən 230 şirkət iştirak edir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə keçirilən sərgidə 10 ölkə - ABŞ, Türkiyə, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, İtaliya, Polşa, Xorvatiya, İran, Sloveniya milli pavilyonla təmsil olunur.

Prezident İlham Əliyevə nazirliyin qurumlarının, müəssisələrinin məhsul və xidmətləri, həyata keçirdiyi layihələri barədə məlumat verildi.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə həyata keçirilən “Robopark” layihəsinin məqsədi məktəblilərin müasir elmi-texniki biliklərinin artırılması, intellektual elmi-texniki yaradıcılığının inkişafı, yüksək texnologiyalar sahəsinə marağın artırılması, eyni zamanda, robot texnikasının əsasları ilə bağlı məlumatlar əldə etmələrinə imkan yaratmaqdır. Layihə çərçivəsində nazirlik Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə 23 nömrəli orta məktəbdə ilk “Robopark” robot texnika laboratoriyası yaradıb.

Nazirlik tərəfindən “İdeyadan Biznesə” layihəsinin icrasına bu ilin aprelindən başlanılıb. Layihənin reallaşdırılmasına Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi, Azərbaycan Gənclər Fondu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, “Microsoft” və “Azercell” şirkətləri dəstək olub. Yeddi ay ərzində respublikanın ayrı-ayrı şəhər və rayonlarında keçirilən start-tap turuna 2 mindən çox iştirakçı qatılıb. Ümumilikdə seçilən 75 komandadan 15-i respublika finalında iştirak hüququ qazanıb.

Nazirliyin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu tərəfindən qrant alan layihələr kommersiyalaşdırılmış layihələr hesab edilir. Nazirliyin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu bu məqsədlə keçirdiyi 6 müsabiqə üzrə ümumilikdə 117 layihəyə qrant ayırıb. Layihələrdən 20-si kommersiyalaşdırılıb və fəaliyyətini davam etdirərək bazarda öz yerini tutub.

“Bakı Telefon Rabitəsi” MMC - “Baktelecom” və “Aztelecom” sərgidə birgə stendlə təmsil olunur. “Baktelecom” GPON texnologiyası ilə “Evədək optika” layihəsini davam etdirir. Bu il 40 min mənzildə bu texnologiya vasitəsilə infrastruktur yaradılıb. Cari ilin əvvəlindən Bakı şəhərində və regionlarda rabitə infrastrukturunun məhdud olduğu ərazilərdə LTE texnologiyası tətbiq edilir. “Aztelecom” ilkin olaraq Xaçmazın kəndlərində simsiz rabitə xidmətinin tətbiqinə başlayıb. Bundan başqa, bu il “Aztelecom” magistral şəbəkənin müasir standartlarla yenidən qurulması layihəsinə də start verib.

Azərbaycanın malik olduğu ilk regional Data Mərkəzinin “Microsoft” şirkəti ilə əməkdaşlığı nəticəsində müştərilərə ən əlverişli şərtlərlə virtual mühit üçün lisenziyalaşdırılmış əməliyyat sistemi təqdim olunur. Burada saxlanılan məlumatların və beynəlxalq səs trafikinin ehtiyat bazasının yaradılması məqsədilə növbəti ilin ikinci rübündə istifadəyə verilməsi planlaşdırılan Yevlax Ehtiyat Data Mərkəzinin inşası davam edir. Bununla yanaşı, Dövlət Data Mərkəzi layihəsi üzərində də işlərə başlanılıb.

Gələn il Məlumat Hesablama Mərkəzi tərəfindən istifadəçi ilə veb-səhifənin serveri arasında şifrəli məlumat mübadiləsini həyata keçirmək üçün lazım olan, Azərbaycanda ilk dəfə təhlükəsizlik sertifikatlarının verilməsinə başlanacaq. İndiyədək həm dövlət, həm də özəl saytlar bu sertifikatı xaricdən əldə edirdi.

Ardı 2-ci səh.



# Operativlik və xeyirxahlıq missiyası

## Azərbaycanda fəal könüllülər ordusu formalaşıb

“Gənclərdə bu işlərlə məşğul olmaq üçün maraq və həvəs var. Ümumiyyətlə, volontyorluq işi çox nəcib işdir və hər bir gəncin öz dövlətinə bağlılığını göstərir. Eyni zamanda, burada təcrübə əldə etmək üçün də yaxşı imkanlar vardır. Onlar gələcək fəaliyyətlərində də, əlbəttə ki, bu təcrübədən istifadə edəcəklər”.

Bu fikirləri Prezident İlham Əliyev 29 dekabr 2012-ci ildə “ASAN” Dövlət Agentliyinin və onun tabeliyində olan 1 saylı “ASAN xidmət” mərkəzinin açılışı zamanı könüllülərlə görüşündə səsləndirib.

Ümumiyyətlə, könüllülük mərhəmət, əliaçıqlıq, ədalət hissi deməkdir. Könüllü olmaq ümid yeri olmaq, savab qazanmaq, xalqına, vətəninə xidmət etmək deməkdir. Könüllülük həm də kollektiv əmək deməkdir. Bərabər işləmək istedadıdır.

### Könüllülük anlayışının tarixi

Bu gün - 5 dekabr Beynəlxalq Könüllülər Günüdür. BMT Baş Assambleyası 1985-ci ildə hökumətlərə hər il iqtisadi və inkişaf naminə bu tarixin qeyd olunmasını təklif edib.

Ardı 6-cı səh.

# Hər sahədə uğur var

Havalar sərin keçsə də, tovuzlular hər gün sahələrə çıxır, məhsulu son dənəsinədək yığmaq üçün əllərindən gələni əsirgəmirlər. Taxıl yığımından sonra növbəti ilin bol məhsulu üçün yer şumlayan, taxılsəpən traktorların səsi ətrafa səs salır. Tərəvəz sahələrində, üzüm bağlarında izdiham hiss olunur.

Rayon icra hakimiyyətində dedilər ki, artıq mövsüm başa çatmaq üzrədir. Buna baxmayaraq, təsərrüfat sahibləri yorulmaq bilmədən çalışır, gələn ilin bol məhsulu üçün hazırlıq görürlər. Bu günlərdə qarşıda duran vəzifələrlə bağlı icra hakimiyyətində yığıncaq da keçirildi. Görülən işlər, qazanılan uğurlar təhlil edildi, qarşıda duran vəzifələr müəyyənləşdirildi.

Cari ilin ötən aylarında 164 milyon 583 min manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunub. 36 min 484 hektar sahədən yığılan məhsulun 65 min 798 tonunu dənli bitkilər, 3 min 200 tonunu qarğıdalı, 141 min 477 tonunu kartof, 25 min 19 tonunu tərəvəz, 574 tonunu bostan bitkiləri, 18 min tonunu şəkər çuğunduru, 9 min 874 tonunu meyvə və giləmeyvə təşkil etmişdir. Dənli bitkilərin məhsuldarlığı keçən illə müqayisədə artaraq 32,1 sentnerə çatmışdır.

Rayonda kənd təsərrüfatı məhsulları istehsalında istixanalar da mühüm rol oynayır. İstixana sahibləri yetişdirilmiş məhsulun satışından 3 milyon 813 min manat, yerkökü istehsalından 3 milyon 500 min manat gəlir əldə etmişlər.

Son illər fermerlər üzümçülüyün inkişaf etdirilməsinə də böyük maraq göstərirlər. Bunun da nəticəsində üzüm bağlarının ümumi sahəsi 725 hektara çatdırılmışdır.

Ardı 6-cı səh.



# Gəzməyə qərib ellər...

Bu gün dünyanın istənilən ölkəsində hər bir insan üçün istirahətin ən əvəzsiz növü qərib elləri, qərib mədəniyyətləri ziyarət etmək, kitablarda, internet resurslarında şəkillərini gördükləri qədim məşhur abidələri, müqəddəs yerləri, əfsanələrlə bağlı məkanları görməkdir.

Başqa xalqların mədəniyyətləri ilə tanış olmaq, yemədikləri milli xörəklərin tamını dadmaq, fərqləri müqayisə etmək və turizmin incəliklərindən zövq almaqdır. Gəzdikcə, gördükcə dünya sənə yaxınlaşır, tanımadığın şəhərlər səni öz doğma övladı kimi qarşılayır.

## Turistlər Azərbaycanı niyə seçir

Zahirən turizm bir qədər fərdi, hər bir şəxsin daxili dünyası və şəxsi istəyi ilə baş tutan sadə səyahət növü olsa da, mahiyyət etibarilə ölkə iqtisadiyyatının vacib və böyük gəlirlər gətirməyə qadir olan sahələrindəndir. Azərbaycan dövləti qeyri-neft sektorunun şaxələndirilməsində turizmin inkişafını önəmli istiqamətlərdən biri elan etmişdir və bu sahənin hərtərəfli və sistemli surətdə inkişafı üçün vacib addımlar atılır, xüsusi qərarlar qəbul edilir.

Ardı 5-ci səh.

# 20 ölkədən 230 şirkət

## "Bakutel-2018" sərgisi dünyanın diqqət mərkəzindədir

*Əvvəli 1-ci səh.*

Gələcəkdə bu sertifikatların ixracı da mümkündür. Müəssisə və təşkilatlarda sənəd dövriyyəsini elektronlaşdırmağa imkan verən "Made in Azerbaijan" brendinə uyğun olaraq yerli mütəxəssislər tərəfindən "AzDoc" adlı proqram hazırlanıb. "Elektron imza və Elektron sənəd haqqında" qanuna və kargüzarlıq təlimatlarına uyğun olan proqram hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi daxilində tətbiq olunur. Gələcəkdə isə bütün dövlət təşkilatları bu proqramdan istifadə edə bilər. Proqramda sənədləri elektron imza ilə də təsdiqləmək mümkündür.

Dövlət Radiotezliklər İdarəsi bu il "Bakutel - 2018" çərçivəsində ən yeni informasiya-kommunikasiya texnologiyalarının ölkədə tətbiqinə şərait yaradılması üçün müasir radiomonitorinq, mobil rabitə xidmətlərinin müqayisəli analizi və digər bu kimi sistem və texnologiyalarını sərgiləyir. Sərgidə 5G - beşinci nəsil mobil rabitə, süni intellekt kimi texnologiyaların işinə və keyfiyyətinə nəzarət prinsiplərini özündə cəmləyən sistemlər nümayiş olunur.

Dövlət Avtomobil Nəqliyyatı Xidməti avtomobil nəqliyyatı sahəsində dövlət tənzimləməsini, əhalinin və iqtisadiyyatın avtomobil nəqliyyatı ilə daşımalara və digər nəqliyyat xidmətlərinə ehtiyacının təmin olunmasına dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Prezident İlham Əliyevin 2008-ci ildə imzaladığı fərmanla yaradılan bu xidmət avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının inkişafı sahəsində tədbirlər görür, beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı subyektləri tərəfindən beynəlxalq norma və qaydalara, həmçinin Azərbaycan Respublikasının normativ hüquqi aktlarına riayət olunmasına nəzarət edir.

Sonra dövlət başçısı və xanımı Azərbaycanda müasir poçtun və rabitənin yaradılmasının 100 illiyinə, eyni zamanda, "Azərbaycan memarlığına" həsr olunan poçt markasını möhürlədilər.

Sərgidə "Azərpoçt" MMC tərəfindən ən çox tələb olunan xidmətlərin göstərildiyi, tam avtomatlaşdırılmış, 24 saat ərzində fasiləsiz fəaliyyət göstərən poçt şöbəsinin prototipi də təqdim olunur. Artıq iki ildir innovativ və texnoloji yeniliklərlə təchiz olunan "Şəbəkə" xidmət mərkəzləri yaradılıb. Növbəti - 9-cu "Şəbəkə" mərkəzinin Beynəlxalq Avtovağzal Kompleksində istifadəyə verilməsi nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibə verdi.

**Müxbir:** Cənab Prezident, müsahibə verdiyiniz üçün çox sağ olun. Azərbaycanda olmağımızdan çox məmnunuq. İcazənizlə Sizinlə söhbətimizi rus dilində davam edək.

**Prezident İlham Əliyev:** Olar, buyurun. Azərbaycan dilində də çox gözəl danışırsınız.

- İlk növbədə, demək istərdim ki, mən Azərbaycana birinci dəfə gəlmirəm və Bakıda həmişə nəyinsə dəyişdiyini görmək çox xoşdur. Siz inkişaf edirsiniz, nailiyyətlərlə kifayətlənmirsiniz. Zəhmət olmasa deyin, son zamanlar Azərbaycanda hansı innovasiyaları xüsusilə inkişaf etdirirsiniz? Mən bilirəm ki, siz təkcə neft sektorunu inkişaf etdirmirsiniz, həm də diqqəti qeyri-neft sektoruna yönəldirsiniz. Siz burada nəyi inkişaf etdirmək istərdiniz?

- Tamamilə doğrudur. Dünyada neftin qiymətinin artıb-azalmasından asılı olmayaraq, Azərbaycan iqtisadiyyatının davamlı tərəqqisi üçün qeyri-neft sektorunun inkişafı bizim uğurla həll etdiyimiz əsas vəzifəmizdir. Buna görə də biznesə yaxşı şəraitin yaradılması məqsədilə infrastruktur layihələrinin inkişafı üçün çox iş görülür. Biznesin həvəsləndirilməsi, sahibkarlara köməklə bağlı xeyli layihələr var. Bütövlükdə investisiya, biznes mühiti Azərbaycanda yaxşılaşır. Dünya Bankının son məlumatlarına, "Doing busines" hesabatına görə Azərbaycan 25-ci yerdədir. Biz bir il ərzində 32 pillə irəliləmişik və bu gün biznes sahəsində dünyanın aparıcı ölkələri sırasındayıq. Buna görə də burada təqdim olunan sahə həm biznes, həm innovasiya, həm də təhsil baxımından çox mühümdür. Bu, bizim üçün prioritet olan sahələrdən biridir və təsadüfi deyil ki, 24 ildir belə bir sərgi keçiririk. İştirak edən şirkətlərin sayı ilbəil artır. Mənə dedilər ki, bu il iştirak edən şirkətlərin sayı 230-dur və çoxlu yerli Azərbaycan şirkətləri var. Yarıdan çoxu Azərbaycan şirkətləridir. Bu, o deməkdir ki, ölkəni inkişaf etdirmək və yeni iş yerləri yaratmaq üçün biz bu istiqamətdə işləməyə hazırıq. Çünki neft sektoru iş yerləri yaratmır.

- Həm də əbədi deyil.

- Bəli, əlbəttə. Ona görə biz daim çalışmalıyıq ki, iş yerlərinin yaradılması iqtisadi inkişafın səviyyəsinə uyğun olsun. Azərbaycanda demoqrafik artımı nəzərə almaqla biz çalışmalıyıq ki, dünyaya yeni gələn hər bir Azərbaycan vətəndaşı 20-30 ildən sonra işlə təmin edilmiş olsun.

- Zəhmət olmasa deyin, turizm sahəsi. Axı Siz turizmi inkişaf etdirmək niyyətindəsiniz. Bildiyimə görə, indi ən çox turist Rusiyadandır. Doğrudur?

- Bəli, birinci yerdə Rusiyadan gələn turistlərdir. İl hələ ki yekunlaşmayıb, amma 800 mindən çox rusiyalı gəlib. Rusiyalılar inamla birinci yeri qoruyub saxlayırlar. Bizdə son iki ildə turizmin artımı müşahidə edilib. 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz artım olub, bu il hələ ki bilmirik, amma yenə də artım var. Turistləri, ilk növbədə, burada özlərini təhlükəsiz hiss etdikləri şərait cəlb edir. Rusiyalılara gəlincə, düşünürəm ki, onlar özlərini evdəki kimi hiss edirlər. Burada dil səddi yoxdur, onlara münasibət çox yaxşıdır. Bizim ortaq tariximiz də mühüm rol oynayır.

- Ləziz təamlarınız...

- Bəli, tamamilə doğrudur. Əlbəttə, təhlükəsizliyin, rahatlığın təmin olunması səviyyəsi, Azərbaycan xalqının qonaqpərvərliyi, eyni zamanda, tarixi abidələr, iqlim - yəni, mən turistlərin Azərbaycana niyə gəldiklərinin səbəbləri barədə çox danışa bilərəm. Düşünürəm ki, rusiyalılar məni eşidəcəklər. Mən məmnunluqla onları ölkəmizə dəvət edirəm. Biz onların gəlişinə həmişə şadıq.

- Müsahibəyə görə çox sağ olun!

* * *

Sərgidə "Nafantano" şirkəti də iştirak edir. Bu şirkət artıq 3 ildir fəaliyyət göstərir. Azərbaycan şirkəti olan "Nafantano" onlayn satış həyata keçirir. Şirkət qeyri-adi oyuncaq heyvanlar istehsal edir.

Tibbdə rəqəmsal cərrahiyyə erası yüksək dəqiqlik tələb edən əməliyyatlarda xüsusi naviqasiya qurğularından istifadə edir. Azərbaycan Tibb Universitetində alim və mütəxəssislər qrupunun tədqiqatlarında bu sahədə rəqəmsal kompüter texnologiyalarının son nailiyyətlərinə hesablanmış reallıq eynəkləri istifadə olunur. Kompüter proqramı artırılmış reallıq eynəkləri istifadədə cərraha real görüntü ilə yanaşı, gözlə görünməyən anatomik strukturları aşkarlamağa imkan verir.

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi də sərgidə təmsil olunur. Burada agentlik tərəfindən kiçik və orta sahibkarların hüquqlarının qorunması ilə bağlı müraciətlərə online baxılması sistemi təqdim edilir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə yaradılan "Sahibkarlara Dəstək Sistemi" sahibkarların hüquqları ilə bağlı müraciətlərə baxılması və onların operativ həlli üçün online platformadır. Məqsəd sahibkarların hüquqlarının müdafiəsinin mükəmməl mexanizmlərinin tətbiqində səmərəliliyin yüksəldilməsi və çevikliyin artırılmasından ibarətdir.

"Bakutel" sərgisi gənc layihəçilərə öz ixtira və proqramları haqqında məlumat vermək üçün də geniş şərait yaradır. Sevindirici haldır ki, bu il sərgidə müxtəlif innovasiya mərkəzlərini təmsil edən rekord sayda - 50-dən artıq startap təmsil olunub. Startaplar öz parlaq innovativ ideyalarını turizm, ekologiya, səhiyyə və maliyyə sektorları üçün təqdim edirlər. Məhsulların əsas hissəsi virtual və artırılmış reallıq texnologiyaları, veb-sayt və mobil tətbiqlərdir.

Belarusun pavilyonunda bu ölkənin şirkətləri innovativ məhsullarını təqdim edir. Ümumilikdə sərgidə Belarus Respublikasının Rabitə və İnformasiyalaşdırma Nazirliyi, "Beltelekom", "Belpochta", "Giprosvyaz", Milli Elektron Xidmət Mərkəzi, Milli Nəqliyyat Mübadilə Mərkəzi, "Promsviaz", İnformasiya Təhlükəsizliyi üzrə Tədqiqat İnstitutu, "Software Applied Systems Institute", Belarus Milli Telekommunikasiya İnstitutu və "Newland" şirkəti iştirak edir.

Digər sərgilərdə olduğu kimi, budəfəki sərgidə də qardaş Türkiyə geniş təmsil olunur. Türkiyənin pavilyonu ilə tanışlıq zamanı məlumat verildi ki, bu ölkədən "Ptt Turkish Post", "Turk Telekom International", "Turkcell", "Türksat" və "Havelsan" şirkətləri innovativ, müasir məhsullarını təqdim edirlər. Bu şirkətlər əsasən süni peyk, rəqəmsal ticarət, mobil operator xidmətləri üzrə ixtisaslaşıb və dünyada qabaqcıl İKT xidmətləri ilə seçilir.

İran da "Bakutel" sərgisinin iştirakçıları sırasındadır. İranın stendində "Telecommunications Infrastructure Company", "Iranian Space Agency", "Saymantech Ltd", "Nasim Telecom", "Samim Group", "Faraz", "Harita" və digər şirkətlər iştirak edir. Ümumilikdə İran bu sərgidə 25 şirkətlə təmsil olunur. Ziyarətçilərə əsasən internet və elektron cihaz xidmətləri, ağıllı şəhər layihələri təklif edilir.

"Bakutel-2018"də ABŞ da təmsil olunur. Birləşmiş Ştatların stendində Azərbaycanda Amerika Ticarət Palatası ilə yanaşı, "American International Radio", "Inc. Air", "Avirtel", "Parallel Wireless", "Seabak" və "Transition Networks" şirkətləri məhsullarını təqdim edir.

İtaliya pavilyonunda İtaliya-Azərbaycan Ticarət Palatası, "GAP İtaliya", "DBA Group" və "GEM Elettronica" şirkətləri məhsullarını təqdim edir. Təqdim olunan məhsullar arasında kibernetika, elektronika, rəqəmsal arxiv kimi bir sıra qabaqcıl texnologiyalar var.

Fransa pavilyonu ilə tanışlıq zamanı məlumat verildi ki, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası ilə yanaşı, bu ölkədən "Linagora", "Schneider Electric" və "Thales" şirkətləri də sərgidə təmsil edilir. Bu şirkətlər də öz innovativ məhsullarını təqdim edirlər.

Birləşmiş Ərəb Əmirlikləri də sərgidə təmsil olunur. Əmirliyin PROW və "Xerrow Technologies" şirkətlərinin məhsulları maraqla qarşılanır.

4G texnologiyası əsasında genişzolaqlı mobil internet xidmətləri göstərən "Sazz" internet şirkəti sərgidə ən son texniki nailiyyətlərini təqdim edir. Şirkət yaxın vaxtlarda respublikamızda 5G texnologiyalarının tətbiqinə hazırlaşır. Yenilikçilik ənənələrinə sadiq qalan şirkət mobil internetin son texnologiyası TDD-LTE-ni də nümayiş etdirir. Bu xidmət 3 sahəni - simsiz televiziya, simsiz telefoniya və təhlükəsizlik kameralarını özündə birləşdirir.

1995-ci ildə yaradılan "Best-Comp Group" şirkəti sistem inteqrasiyası, Data mərkəzi həlləri, layihə həlləri, proqram təminatının yaradılması, distribusiya və digər İT xidmətlərin göstərilməsi sahəsində Cənubi Qafqaz və Orta Asiyanın İKT sektorunun liderlərindən biridir. Şirkət dövlət və özəl sektorda əhəmiyyətli layihələrə imza atır.

Hazırda Bakı Beynəlxalq Avtovağzal Kompleksinin yardımçı sahəsində avtobusların, minik avtomobillərinin, taksilərin, həmçinin sərnişinlərin və turistlərin daha təhlükəsiz, rahat hərəkətinin təmin edilməsi məqsədilə nəqliyyat qovşağı inşa edilir. Bakı Beynəlxalq Avtovağzalı və "Cisco" şirkətinin birgə hazırladığı "Ağıllı Şəhər" pilot layihəsi vasitəsilə yerli və beynəlxalq daşımaların idarə olunmasında nəqliyyat xidmətlərinin keyfiyyətinin artması, xərclərin azaldılması, o cümlədən təhlükəsizliyin yüksək səviyyədə təmin olunması nəzərdə tutulub. Bakı Beynəlxalq Avtovağzalının SAP şirkəti ilə birlikdə təqdim etdiyi ağıllı jiletlər sürücülərin səhhəti ilə bağlı məlumat verir, eyni zamanda, avtobusda yarana biləcək problemlər barədə onlayn rejimdə sürücünü dərhal xəbərdar edir.

Azərbaycan Dövlət Reklam Agentliyinin stendi ilə tanışlıq zamanı məlumat verildi ki, agentlik açıq məkanda reklam daşıyıcılarının yerləşdirilməsi, onlar üzərindəki reklamların hazırlanması və yayımlanması sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən qurumdur. Stendə agentliyin bir çox xidmətləri, o cümlədən açıq məkanda reklam daşıyıcılarının elektron qeydiyyatı portalı, reklam daşıyıcılarının kənardan ölçmə cihazı və proqram təminatı, açıq məkanda reklam mühitinin monitorinq və analizini aparan cihaz və proqram təminatı təqdim edilir.

Sərgidə "Azərkosmos" ASC tərəfindən "Peyk layihələrimiz" barədə məlumat verilir. Bu stenddə "Azerspace-1" peykinin nailiyyətlərini əks etdirən infoqrafika, "Azerspace-2" peykinin tutumları vasitəsilə Azərbaycan Respublikasının 600 ucqar kənd məktəbinin peyk interneti ilə təmin olunmasına dair perspektiv layihənin məzmunu, "Azersky" peyki tərəfindən əldə olunan təsvirlər vasitəsilə 2018-ci ildə həyata keçirilən "Azərbaycan Respublikasının meşələrinin monitorinqi layihəsi" və "Bitki örtüyünün xəritələşdirilməsi və məhsuldarlığın proqnozlaşdırılması" layihəsi haqqında məlumat verilir.

Sərgidə "Huawei" şirkəti də məhsullarını təqdim edir. İKT sahəsindəki həllərin dünya üzrə tədarükçüsü olan "Huawei" müştərilərin tələblərinə müvafiq olaraq fasiləsiz innovasiyaların yaradılması istiqamətində çalışır, telekommunikasiya şəbəkələri, korporativ şəbəkələr, abonent qurğuları və bulud hesablamaları sahəsində tərəfdaşlarla yeni əməkdaşlıq imkanları yaradır.

"Microsoft" korporasiyası da artıq çoxdandır ki, sərgidə fəal iştirak edir. 1975-ci ildə təsis olunan bu şirkət proqram təminatı istehsalında dünya lideridir. Korporasiya geniş çeşidli proqram məhsulları hazırlayır və istehsal edir. Ümumilikdə şirkət İT texnologiyası ilə bağlı ən müasir həll variantlarını nümayiş etdirir. Şirkət ölkəmizdə 2005-ci ildən fəaliyyət göstərir.

Rəqəmsal sahəni təşkil edən texnologiyaların nümayiş olunması və müzakirəsi ilə yanaşı, "Bakutel" həm də yüksək texnologiyaların tətbiqi ilə əyləncəli məhsulların təqdim edildiyi nadir platformadır. Bu il burada "3D Production" şirkətinin rəqəmli muzey layihəsi də həyata keçirilib.

Bu il oyun zonasında "Yüksəklik" kompüter oyunu, milli nağıl qəhrəmanları "Külək" virtual nağılları da təqdim edilir. Oyun zonasında Azərbaycanın görməli yerlərini çap edəcək "3D" printerlər və dronların şousu da nümayiş olunur. Azərbaycanın milli brendi Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyası məktəblilərin dərsdənkənar elmi yaradıcı potensialını inkişaf etdirmək üçün "Mən Pilotam" adlı layihəsini təqdim edir.

Sonra Prezident İlham Əliyev məşhur futbolçu, fransız Robert Pireslə görüşdü. Pires 1998-ci ildə dünya çempionu, 2000-ci ildə isə Avropa çempionu olub. "Arsenal" komandasının liderlərindən olan Pires, həmçinin İngiltərə kubokunun qalibi və İngiltərə çempionudur. FIFA-nın 2000-ci il reytinqinə görə, o, dünyanın ən yaxşı 100 futbolçusundan biri olub. O, həmçinin gələn il Bakıda keçiriləcək Avroliqa finalının səfiridir.

Qeyd edək ki, sərgidə, ilk dəfə olaraq, alman alimlərinin ixtirası olan ultra-modern texnologiyası əsasında "RoboKeeper" təqdim olunur. Bu, dünyanın ən sürətli qapıçısı hesab edilir. Hətta bir çox məşhur dünya futbol ulduzları da bu qapıçını məğlub edə bilmir. Robert Pires Prezident İlham Əliyevə Avroliqanın rəsmi topunu təqdim etdi.

Sərgi çərçivəsində Azərbaycanda poçt rabitəsinin 200 illik yubileyinə həsr olunmuş muzey də fəaliyyət göstərir.
















# Amerika Birləşmiş Ştatlarının rəhbərliyi Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycanla ABŞ arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev qarşılıqlı səfərlərin, o cümlədən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun və digər rəsmilərin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafındakı rolunu qeyd etdi. Müdafiə sahəsində əməkdaşlığın məmnunluq doğurduğunu deyən dövlət başçısı enerji təhlükəsizliyi məsələlərinin də ikitərəfli münasibətlərimizin inkişafında böyük önəm daşıdığını bildirdi, bu baxımdan ABŞ hökumətinin və şəxsən ABŞ Prezidentinin "Cənub qaz dəhlizi" layihəsinin reallaşmasına verdiyi dəstəyi yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Respublika Günü və enerji sahəsində əməkdaşlıq mövzusunda ABŞ Prezidentinin ünvanladığı məktubların da əhəmiyyətini qeyd etdi.



Dövlət başçısı NATO çərçivəsində də əlaqələrin inkişafından məmnunluğunu bildirərək, NATO mənzil qərargahına son uğurlu səfərini bu təşkilatla əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Əfqanıstandakı sülhməramlı əməliyyatlarda ölkəmizin iştirakı və orada Qətiyyətli Dəstək Missiyasında hərbçilərimizin sayının artırılması Azərbaycanın bu ölkədə ümumi sülhyaratma səylərinə verdiyi töhfəsini nümayiş etdirir. Azərbaycanın etibarlı və sabit tərəfdaş olduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizin, həmçinin ikitərəfli əsasda da Əfqanıstanda həyata keçirilən quruculuq və yenidənqurma işlərinə öz töhfəsini, xüsusilə "ASAN xidmət" təcrübəsinin Əfqanıstanda da tətbiqinə dəstək verdiyini bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev xanım Laura Kuperin səfərinin və ölkələrimiz arasında müdafiə sahəsində məsləhətləşmələrin əməkdaşlığımızın inkişafına əlavə təkan verəcəyinə ümidvar olduğunu vurğuladı.

Ölkəmizə səfərinin Azərbaycanla ABŞ arasında müdafiə sahəsində əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrinin genişlənməsinin davam etdirilməsi məqsədini daşıdığını deyən ABŞ müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuper qeyd etdi ki, Amerika Birləşmiş Ştatlarının rəhbərliyi Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verir. Xanım Laura Kuper Azərbaycanla ABŞ arasında terrorizm, kütləvi qırğın silahları və narkotik maddələrin yayılmasının qarşısının alınması və ümumilikdə təhlükəsizlik sahəsində əməkdaşlığı, Azərbaycanın Əfqanıstanda həyata keçirilən sülhyaratma missiyasına dəstəyini və tranzit daşımaları üçün yaratdığı imkanları yüksək qiymətləndirdi.

# Azərbaycanla İran rabitə və informasiya texnologiyaları sahəsində yaxşı əməkdaşlıq həyata keçirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Məhəmməd Cavad Azəri Cəhrominin XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində iştirakından və İranın bu tədbirdə geniş sayda şirkətlərlə təmsil olunmasından məmnunluğunu bildirdi. Sərginin ənənəvi olaraq keçirildiyini deyən Prezident İlham Əliyev burada İran şirkətlərinin daim iştirak etdiyini vurğuladı. Azərbaycanla İranın müxtəlif sahələrdə, o cümlədən rabitə və informasiya texnologiyaları sahəsində yaxşı əməkdaşlıq həyata keçirdiyini qeyd edən dövlət başçısı müntəzəm qarşılıqlı səfərlərin, eləcə də nazirlər səviyyəsində təmasların yaxşı səviyyədə olduğunu diqqətə çatdırdı. Dövlət başçısı İKT sahəsində həm ikitərəfli səviyyədə, həm də regional çərçivədə əməkdaşlıq üçün yaxşı imkanlar açıldığını dedi.



Qəbula görə minnətdarlığını bildirən İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi ölkələrimiz arasında İKT sahəsində yaxşı əməkdaşlıq həyata keçirildiyini vurğuladı. O, əməkdaşlığın təkcə ikitərəfli səviyyədə deyil, eləcə də İran, Azərbaycan, Türkiyə, Rusiya səviyyəsində genişləndirilməsi üçün səmərəli müzakirələrin aparıldığını dedi. Məhəmməd Cavad Azəri Cəhromi keçən il Azərbaycan Prezidenti ilə görüşdən ötən dövr ərzində əməkdaşlığın genişləndirilməsi və layihələrin icrası ilə bağlı çoxlu işlərin görüldüyünü məmnunluqla qeyd etdi.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# XXIV "Bakutel" sərgisində Türkiyə böyük heyətlə iştirak edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində böyük heyətlə iştirakından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən nəqliyyat və infrastruktur sahələrində uğurla inkişaf etdiyini bildirdi. Nəqliyyat sahəsində əməkdaşlığımıza toxunan dövlət başçısı ölkələrimizin birgə həyata keçirdiyi layihələrdən danışaraq ötən il istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təkcə regionda deyil, daha geniş məkanda böyük önəm daşıdığını vurğuladı. Dövlət başçısı ölkələrimizin rabitə sahəsində də birgə iş birliyi apardıqlarını, Türkiyə şirkətlərinin bu sahədə uzun illər fəaliyyət göstərdiklərini dedi və rabitə sahəsində əməkdaşlığımızın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu bildirdi.



Nazir Mehmet Cahit Turhan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçısına çatdırdı. Azərbaycanla Türkiyə arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu vurğulayan qonaq Azərbaycanda bütün sahələrdə, o cümlədən infrastruktur və şəhərsalmada böyük inkişafın şahidi olduğunu dedi. Mehmet Cahit Turhan bildirdi ki, ulu öndər Heydər Əliyevin ifadəsi ilə desək, Azərbaycanla Türkiyə "Bir millət, iki dövlət"dir və Azərbaycanın əldə etdiyi uğurlar Türkiyədə böyük sevinclə qarşılanır. Türkiyəli nazir Azərbaycanla Türkiyənin bundan sonra da birgə uğurlu layihələr həyata keçirəcəklərini məmnunluqla qeyd etdi.

Dövlət başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

# XXIV beynəlxalq "Bakutel-2018" telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgi və konfransının iştirakçılarına

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində XXIV beynəlxalq "Bakutel-2018" telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgi və konfransının açılışı münasibətilə səmimi salamlayır, hər birinizə uğurlar arzulayıram.

Yüksək texnologiyalar sahəsində mühüm hadisələrdən olan sərgi və konfransınızın informasiya-kommunikasiya texnologiyaları sektoru nümayəndələrinin ənənəvi görüş məkanına çevrilməsi sevindirici haldır. Ən son yeniliklərin və texnoloji nailiyyətlərin nümayiş etdirilməsi baxımından geniş imkanlara malik "Bakutel" platformasında informasiya-kommunikasiya sənayesi təmsilçiləri, aparıcı biznes rəhbərləri və mütəxəssislər özlərinin qlobal əhəmiyyətli layihələr və eləcə də gələcək inkişaf perspektivləri ilə bağlı fikirlərini bölüşərək həlledici qərarlar qəbul edirlər.

Bu gün Azərbaycanda telekommunikasiya üzrə yeni texnologiyaların tətbiqi və xidmət şəbəkəsinin ən müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Vətəndaşların telekommunikasiya, poçt və digər xidmətlərlə daha keyfiyyətli təmin olunması məqsədilə yaradılmış "Şəbəkə" xidmət mərkəzlərinin sayı davamlı artırılır. İnformasiya-kommunikasiya texnologiyalarının cəmiyyət həyatının ayrı-ayrı sahələrində geniş tətbiqi və məlumatların vahid mərkəzdə təhlükəsiz saxlanması üçün beynəlxalq səviyyədə təhlükəsizlik standartlarına cavab verən Data Mərkəzi qurulmuşdur.

Azərbaycan Poçtu ənənəvi xidmətlərlə yanaşı, bank-maliyyə xidmətləri də göstərir. Milli poçtumuz beynəlxalq tranzit poçt mərkəzi kimi fəaliyyətə başlamışdır. İnformasiya-kommunikasiya texnologiyalarına marağın artırılması və gənclərin innovativ ideyalarına dəstək məqsədilə paytaxtda, həmçinin bölgələrdə "İdeyadan Biznesə" startap turları və müxtəlif yarışlar təşkil olunur. Bu yaxınlarda ölkəmizdə ilk dəfə olaraq beynəlxalq "İnnovasiyalar həftəsi" keçirilmişdir. Layihə çərçivəsində ziyarətçilər yüksək texnologiyalar və innovasiyalara dair yeniliklərlə yaxından tanış olmaq imkanı qazanmışlar.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılmasının ölkəmizdə yüksək texnologiyaların inkişaf tempini daha da artıracağına əminliyimi ifadə etmək istərdim. İnanıram ki, sərgi və konfrans aparacağınız geniş müzakirələr və keçirəcəyiniz səmərəli görüşlərlə qarşılıqlı əməkdaşlıq əlaqələrinin dərinləşməsinə və yeni təşəbbüslərin meydana çıxmasına yol açacaq, informasiya-kommunikasiya texnologiyaları sənayesinin inkişafına öz töhfəsini verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2018-ci il*

## Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 90 illik yubileyi münasibətilə və Azərbaycanda kitabxanaçılıq işinin təkmilləşdirilməsi sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Əliyeva Mədinə Talış qızı
Həsənova Sənübər Abdulqafar qızı
Quliyev Oruc İslam oğlu
Musayeva Xalidə Məmmədəli qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2018-ci il*

## Tailandın Kralı əlahəzrət Maha Vaciralonqkorn Bodindradebayavaranqkuna

Əlahəzrət!

Tailand Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Tailand xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2018-ci il*

# *Hikmət HACIYEV:* "Ziddiyyətlərdən uzaq duran Azərbaycan səmərəli əməkdaşlıq formaları ilə öz nümunəsini təqdim edir"

Çoxşaxəli beynəlxalq əməkdaşlığı dəstəkləyən Azərbaycan 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək. Bu təşkilatın prioritet mövzuları beynəlxalq sülh və təhlükəsizlikdir.

Bu fikirlər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri Hikmət Hacıyevin Brüsseldə nəşr olunan nüfuzlu EURACTİV qəzetinin baş redaktoru Georgi Qotevə eksklüziv müsahibəsində yer alıb. AZƏRTAC qəzetdə dərc olunmuş müsahibəni təqdim edir.




*- Postsovet məkanında bir neçə "dondurulmuş münaqişə" var. Amma onların bəzilərini "dondurulmuş" hesab etmək olmaz. Çünki bu münaqişələrdə hələ də silahlardan istifadə olunur, insanlar həyatını itirir. Dağlıq Qarabağ da belə münaqişələrdən biridir. Ermənistanda yeni baş nazirin hakimiyyətə gəlişindən sonra bu istiqamətdə hansısa dəyişikliklər olubmu? Münaqişənin həllində müsbət inkişafa ümid varmı?*

- Bu il noyabrın 11-də Birinci Dünya müharibəsinin başa çatmasının 100-cü ildönümü qeyd olunub. Təəssüflə bildirmək lazımdır ki, bu gün Avropada, Azərbaycanın işğal altındakı əraziləri boyunca Birinci Dünya müharibəsini xatırladan səngərlər var. Buna görə sizinlə razıyam. Bu münaqişəni metaforik olaraq "dondurulmuş" hesab edənlər yanılır. Birinci və İkinci Dünya müharibələri göstərib ki, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşı gücdən istifadənin dəhşətli fəsadları olur. Odur ki, dövlətlərin beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin dəyişdirilməsinə cəhd qəbuledilməzdir.

Əgər Ermənistandakı yeni hökumət sivil dövlət qurmaq, əhalisini layiqli həyatla təmin etmək niyyətindədirsə, rəsmi Yerevan üzərinə götürdüyü beynəlxalq öhdəlikləri yerinə yetirməli, BMT Təhlükəsizlik Şurasının qətnamələrində tələb olunduğu kimi, Azərbaycanın işğal altındakı ərazilərindən qoşunlarını çıxarmalıdır. Bundan əlavə, azərbaycanlı məcburi köçkünlər doğma torpaqlarına qayıtmalı, ədalət bərpa olunmalıdır. Ədalət olmadan sülhü təmin etmək mümkün deyil.

Ermənistan qonşu ölkələrlə sülh şəraitində yaşamağı öyrənməlidir. O, hərbi təcavüzü, ərazi iddialarını və öz-özünü təcrid etməyi dayandırmalıdır. Yalnız bundan sonra hərbi riskləri aradan qaldırmaq, işğala əsaslanan status-kvonu dəyişdirmək olar. Nəticədə münaqişənin siyasi yolla həllinə imkan yaranar.

Yeri gəlmişkən, ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlər (Fransa, Rusiya, ABŞ) bu münaqişə ilə bağlı status-kvonun dəyişdirilməsinə ehtiyac olduğunu hətta prezidentlər səviyyəsində dəfələrlə vurğulayıblar. Ermənistandakı yeni hökumətdən də bunu gözləyirik. Onlar əvvəlki hərbi xunta rejiminin səhvlərini təkrarlamamalıdır.

Bu ilin sentyabrında Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası əsnasında Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistanın baş naziri arasında söhbət olub. Nəticədə Azərbaycan konstruktiv mövqeyini, münaqişənin danışıqlar yolu ilə həllində qətiyyətini bir daha nümayiş etdirib. Atəşkəs rejiminin gücləndirilməsi, aşağı səviyyələrdə kommunikasiyanın yaradılması, danışıqlara dair öhdəliklərin təmin edilməsi ilə bağlı şifahi razılıq əldə olunub.

Azərbaycan Ermənistandakı seçkidən sonra ATƏT-in Minsk qrupunun həmsədrlərinin təklif etdiyi və dəstəklədiyi substantiv, intensiv danışıqlara hazırdır. Amma təəssüf ki, Bakının konstruktiv və xoşniyyətli mövqeyinə rəğmən, Yerevan Azərbaycanın işğal altındakı ərazilərində qeyri-qanuni fəaliyyətini davam etdirir. Bu, danışıqlar üçün əlverişli mühitin yaradılmasına ciddi zərbə vurur.

*- Ermənistanın Azərbaycanda ciddi narahatlıq yaradan fəaliyyətinə misal göstərə bilərsinizmi?*

- Ermənistan Azərbaycanın işğal altındakı ərazilərində anneksiya siyasəti yürüdür, qeyri-qanuni fəaliyyətlər həyata keçirir. Bununla o, işğala əsaslanan status-kvonu möhkəmləndirməyə çalışır. Rəsmi Bakıda xüsusilə ciddi narahatlıq yaradan məsələ Suriya ermənilərinin işğal altındakı ərazilərdə məskunlaşdırılması, bu ərazilərdə demoqrafik vəziyyətin süni şəkildə dəyişdirilməsidir. Humanitar hüquqa və Cenevrə konvensiyalarına əsasən, işğal edilmiş ərazilərdə qeyri-qanuni fəaliyyət qadağandır. İşğal altındakı ərazilərdə mineral sərvətlərin istismarı və onların İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı üzv ölkələrinə qeyri-şəffaf şəkildə ixrac edilməsi də ciddi narahatlıq yaradır. Bununla yanaşı, Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycan xalqının əsrlərlə mövcud olan mədəni irsini məhv edir. Onlardan bəzilərinin bərpası artıq mümkün deyil. Azərbaycanın işğal altındakı ərazilərinə qeyri-qanuni səfərlər, bu ərazilərdə qanunsuz əməllərin həyata keçirilməsi sülh prosesinə xələl gətirməklə yanaşı, etnik təmizləməyə məruz qalmış 1 milyondan çox azərbaycanlı məcburi köçkün və qaçqının kollektiv hüquqlarının pozulmasıdır.

*- Rəsmi Bakı bütün qlobal ölkələrlə yaxşı əlaqələrə əsaslanan siyasət yürüdür. Lakin qlobal ölkələr arasında münasibətlər daha da pisləşir: ABŞ ilə Avropa İttifaqı (Aİ) arasında münasibətlər indiyədək görünmədiyi qədər pisdir, Vaşinqtonla Pekin arasında əlaqələrdə problemlər var, Rusiya ilə Qərb ölkələri arasındakı münasibətlər narahatedicidir. Bugünkü vəziyyəti necə qiymətləndirirsiniz? Bu, Azərbaycan üçün nə kimi nəticələr verə bilər? Ölkənizin beynəlxalq səviyyədə rolu necə olacaq?*

- Beynəlxalq münasibətlərdə artan gərginlik və ziddiyyət dünya ictimaiyyətinin məsuliyyətli üzvü olan Azərbaycanı da narahat edir. Çünki rəsmi Bakı qanunlara əsaslanan beynəlxalq siyasi və iqtisadi düzəni dəstəkləyir. Bununla yanaşı, o, çoxşaxəli beynəlxalq münasibətlərin və əməkdaşlığın tərəfdarıdır.

Azərbaycan universal təsisatlarla bağlı islahatların və onların müasir dövrə uyğunlaşdırılmasının sadiq tərəfdarıdır. Bakı 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək (Qoşulmama Hərəkatı 120 ölkəni birləşdirən beynəlxalq təsisatdır. Bu təşkilata üzv ölkələr heç bir hərbi bloka qoşulmur). Beynəlxalq sülh və təhlükəsizlik məsələləri Qoşulmama Hərəkatının gündəmində olan prioritet mövzulardır. Azərbaycanın sədrliyi dövründə bu hədəflərə töhfə verməsi üçün güclü iradəsi var. Azərbaycan ziddiyyətlərdən uzaq durur və ikitərəfli səmərəli əməkdaşlıq formaları ilə öz nümunəsini təqdim edir. Bu gün ölkəmiz qlobal sülh platforması rolunu oynayır. Müxtəlif mövqeləri olan ölkələr Azərbaycanda ortaq məxrəc tapır. Məsələn, Rusiya, ABŞ və NATO-nun hərbi liderləri müntəzəm olaraq Bakıda görüşürlər.

Yeri gəlmişkən, sualınız mənə Prezident İlham Əliyevin Şimali Atlantika Şurasının iclasındakı sözlərini xatırlatdı. Dövlətimizin başçısı o zaman demişdi: "Biz dostlarımızın da bir-biri ilə dost olmasını istərdik". Bu bəyanat qüvvədə qalır.

*- "Bir kəmər - bir yol" təşəbbüsü Azərbaycan üçün nə qədər vacibdir? Əlbəttə, Beynəlxalq Dəniz Ticarət Limanı şübhəsiz ki, bu böyük mozaikanın bir hissəsidir. Amma Avropa İttifaqı Çinin bu planından narahatdır və bununla bağlı Pekinə öz təklifini verib. Ölkələr üçün uduşlu plan necə ola bilər?*

- Azərbaycan tarixən qədim İpək yolunun bir hissəsi olub. Ölkənin tarixi təcrübəsinə, coğrafi mövqeyinə, həmçinin Azərbaycanın qlobal ticarətə töhfə vermək əzminə görə rəsmi Bakı belə layihələrdə fəal iştirak edir. Bununla yanaşı, o, bağlantı və uzlaşmalarla əlaqədar müxtəlif modellərin yaradılmasına töhfə verir. Bu gün ölkəmiz regionda ən müasir infrastruktura malik dövlətdir. Buraya İpək yolunun yerüstü, hava, dəniz və dəmir yolu komponentləri daxildir. Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi bunun ən bariz nümunəsidir. Çinin "Bir kəmər - bir yol" təşəbbüsünü irəli sürməsindən etibarən Azərbaycan bu layihəni dəstəkləyir. Bununla yanaşı, ölkəmiz Aİ-nin uzlaşma və bağlantılarla əlaqəli konsepsiyasını da təqdir edir. Nəqliyyat dəhlizlərinin yaradılması təkcə yük daşınması demək deyil. Əlbəttə ki, bu, daha böyük anlam kəsb edir. Çünki qədim İpək yolu göstərib ki, bu, sivilizasiyaların, mədəniyyətlərin əməkdaşlığı və qarşılıqlı zənginləşməsidir. Azərbaycan isə müasir infrastrukturu və geniş regionlara çıxış imkanları sayəsində "Şərq-Qərb" layihəsi vasitəsilə Çin və Avropa bazarlarının birləşməsinə töhfə verir. Bu layihə ilə Çindən Avropaya ən qısa və sərfəli müddətdə yük daşınması mümkün olacaq. Bununla çox sayda iş yerləri yaradılacaq, ölkələr çiçəklənəcək və sabitlik olacaq. Ölkələr üçün uduşlu plan məhz budur.

*- Azərbaycan həm coğrafi, həm də digər xüsusiyyətlərə görə Türkiyə və İranla yaxındır. Amma Aİ üçün geosiyasi ambisiyalara malik belə tərəfdaşlarla işləmək hər zaman asan olmur. Bu məsələ ilə bağlı məsləhət verə bilərsinizmi?*

- Qonşu ölkələrlə əlaqələr Azərbaycanın xarici siyasəti üçün prioritet məsələdir. Düzgün qeyd etdiniz ki, ölkəmizin həm Türkiyə, həm də İranla dostluq və tərəfdaşlıq əlaqələri var. Heç kəsə məsləhət verə bilmərik. Amma Azərbaycan öz təcrübəsini bölüşə və özü ilə bağlı nümunələri göstərə bilər. Ölkəmiz şəffaf, təxminedilən, müstəqil xarici siyasət yürüdür. Rəsmi Bakı heç bir dövlətin daxili işlərinə qarışmır, Azərbaycan öz maraqları ilə tərəfdaşlarının maraqları arasında ortaq nöqtə tapmaq yolu əsasında regional əməkdaşlıq imkanları təklif edir.

Hesab edirik, ən yaxşı inkişaf bölüşülən inkişafdır. Nəticədə sülhə və dostluğa əsaslanan qonşuluq münasibətlərinin yaradılmasına töhfə veririk.

Azərbaycan Türkiyə və İranla ikitərəfli, həmçinin üçtərəfli formatda əməkdaşlıq edir. Bu, qarşılıqlı faydalı olan regional əməkdaşlığa töhfə verir. Sonda onu əlavə etmək istərdim ki, qarşılıqlı xoş niyyətə əsaslanan ümumi maraqlar və etimad sayəsində ikitərəfli əməkdaşlıq modelləri ilə bağlı uğur qazanmaq mümkündür.

# Azərbaycan ilə ABŞ arasında hərbi-texniki əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə edilib



Dekabrın 4-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan ABŞ müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Zakir Həsənov ölkələrimiz arasında hərbi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq, Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlıq, o cümlədən hərbçilərimizin NATO proqramları çərçivəsində fəaliyyəti, sülhməramlılarımızın Alyansın Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasında iştirakı haqqında ətraflı məlumat verib. Nazir qeyd edib ki, hər iki ölkə hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsində maraqlıdır. ABŞ-ın qabaqcıl hərbi təhsil müəssisələrində təhsil alan zabitlərimizin sayının artırılması qərara alınıb.

Regiondakı hərbi-siyasi vəziyyət barədə də qonağa məlumat verən general-polkovnik Z.Həsənov Ermənistanın Cənubi Qafqazda sabitliyə təhlükə yaratdığını, beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymadan Azərbaycan torpaqlarını işğal altında saxladığını xüsusi vurğulayıb.

L.Kuper ABŞ hökumətinin Azərbaycan ilə təhlükəsizlik və hərbi sahələrdə əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsində maraqlı olduğunu vurğulayıb. Azərbaycanın Əfqanıstandakı əməliyyatlara verdiyi töhfəni, o cümlədən sülhməramlılarımızın peşəkarlığını yüksək dəyərləndirən L.Kuper ABŞ-ın müdafiə naziri Ceyms Mettisdən sitat gətirərək bildirib ki, "Əfqanıstanda bu gün əldə edilən uğurlar Azərbaycanın güclü dəstəyi olmadan mümkün olmazdı".

Qonaq ölkəmizin terrorizmlə mübarizədə iştirakını və sülhməramlılarımızın Əfqanıstandakı nümunəvi xidmətini də xüsusi qeyd edib.

Görüşdə Azərbaycan ilə ABŞ arasında hərbi əlaqələrin inkişaf perspektivləri, o cümlədən təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlıq, hərbi təhsil və tibb hazırlığı məsələləri də müzakirə olunub.

# ADA Universitetində azərbaycanlı diplomatların Paris Sülh Konfransındakı fəaliyyətindən bəhs edən kitabın təqdimatı olub

Dekabrın 4-də ADA Universitetində Georq Mamuliya və Ramiz Abutalıbovun müəllifliyi ilə "Ə.M.Topçubaşi. Paris arxivi. 1919-1940" (A.M.Topçibaşi. Parijskiy arxiv. 1919-1940) dörd cildlik kitabın təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə bildirib ki, Azərbaycan Prezidentinin 2015-ci ildə Əlimərdan bəy Topçubaşovun 100 illik yubileyi ilə bağlı imzaladığı sərəncama əsasən ADA Universitetində bundan əvvəl də tədbirlər keçirilib. Həmin tədbirlərdə Topçubaşovun siyasi fəaliyyətindən bəhs olunub. Bu gün təqdimatına toplaşdığımız kitabda Azərbaycanın diplomatiya tarixindən danışılır.

Kitabın həmmüəllifi Georq Mamuliya qeyd edib ki, Paris Sülh Konfransında Azərbaycan diplomatları yalnız öz ölkələrinin deyil, bütün Qafqazın müstəqilliyi və siyasi-mənəvi birliyi uğrunda mübarizə aparıblar. Nəşrdə həmin dövrdə gedən qlobal siyasi və sosial proseslərdən bəhs olunur.

Digər həmmüəllif Ramiz Abutalıbov kitabın nəşrinə göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna minnətdarlığını bildirib. Məhz bu dəstək nəticəsində Fransa arxivlərində tarixi faktlarla bağlı araşdırmaların aparılması mümkün olub. O, Fransa arxivlərində Ceyhun Hacıbəyli və Azərbaycanın digər tarixi şəxsiyyətləri ilə bağlı zəngin məlumatların olduğunu da deyib. Sabiq səfir əlavə edib ki, kitab tarixi sənədlər və materiallar əsasında tərtib olunub. Nəşrdə 1918-ci il Azərbaycan diplomatlarının Paris Sülh Konfransındakı fəaliyyətindən bəhs olunub.

AMEA-nın Tarix İnstitutunun şöbə müdiri Sevinc Əliyeva bildirib ki, kitabda Azərbaycan Xalq Cümhuriyyəti tarixinin indiyədək məlum olmayan faktları əksini tapıb. Həmçinin əsərdə 1919-1921-ci illərdə Azərbaycan və Qafqaz xalqlarının azadlıq uğrunda mübarizəsindən danışılır.

Alim qeyd edib ki, 1918-ci il dekabrın 7-də fəaliyyətə başlayan Azərbaycan parlamentinin qərarı ilə Parisə - Versal Sülh Konfransına göndərilən





nümayəndə heyəti xalqın iradəsini, onun müstəqillik əzmini ifadə etmək, bu müstəqilliyi dünyaya tanıtmaq və qəbul etdirmək missiyasını öz üzərinə götürmüşdü. Nəşrdə dövlət xadimi və diplomat, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə 1918-1920-ci illərdə Parisdə fəaliyyət göstərən Azərbaycan diplomatik missiyası haqqında bir sıra mənbələr aşkara çıxarılıb və ictimaiyyətə çatdırılıb.

Tarixçi Aydın Balıyev vurğulayıb ki, keçmiş sovet dövründə bu arxivlərə çatmaq mümkün deyildi. Müstəqilliyin bərpasından sonra bu proses bir qədər sadələşdi. Bu gün isə Azərbaycan dövlətinin dəstəyi və Ramiz Abutalıbovun yorulmaz səyi nəticəsində 4 cildlik kitab ərsəyə gəlib. Kitabda Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətinin tərkibi ilə bağlı məlumat verilir. Belə ki, 1918-ci il dekabrın 28-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti parlamentin ağsaqqallar şurasının üzvlərinin iştirakı ilə Paris Sülh Konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini müəyyən edib. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinə Məmmədhəsən Hacınski, Əhməd bəy Ağayev, Əkbər Şeyxülislamov, Məhəmməd Məhərrəmov, Miryaqub Mehdiyev və Ceyhun bəy Hacıbəyli daxil idilər.

Milli Məclisin deputatı, tarixçi alim Musa Qasımlı bildirib ki, diplomatlarımızın Paris Sülh Konfransı üçün hazırladıqları memorandumda Azərbaycanın ərazi bütövlüyünə olan iddialar diplomatik dillə rədd edilir. Memorandumun ən mühüm bölmələri Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi və əhalisinə aid bölmələr idi. Qeyd olunurdu ki, Ermənistanın, Gürcüstanın və İranın konfransa təqdim etdikləri ərazi iddiaları bilavasitə Azərbaycana qarşı yönəldiyindən cümhuriyyət ərazilərinin tarixən ona məxsus olması, Azərbaycana qarşı iddia qaldırılmış ərazilərdə əhalinin böyük əksəriyyətini ta qədimdən azərbaycanlıların təşkil etməsi tarixi faktlarla əsaslandırılıb.

Tarixçi alim Solmaz Tohidi kitabın əhəmiyyətindən bəhs edərək bildirib ki, bu nəşr Azərbaycan Xalq Cümhuriyyəti diplomatlarının, xüsusilə də Ə.M.Topçubaşovun xidmətlərinin xalqımızın diqqətinə çatdırılmasında əhəmiyyətli mənbədir. Solmaz Tohidi əhəmiyyətli tarixi faktların üzə çıxarılmasına göstərdiyi köməyə görə Georq Mamuliyaya minnətdarlığını bildirib. O deyib ki, Topçubaşovun arxivindən mühüm sənədlərin əldə olunmasında G.Mamuliyanın böyük rolu olub.

Qeyd edək ki, kitabda Azərbaycan nümayəndə heyətinin 1919-cu ildə Amerika Birləşmiş Ştatlarının Prezidenti Vudro Vilsonla görüşündən də bəhs olunur. Görüşdə ABŞ Prezidenti V.Vilsona təqdim olunmuş memorandumda Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən, onun birillik inkişaf yolundan, istiqlal uğrunda verdiyi qurbanlardan danışılırdı. V.Vilsondan Azərbaycanın istiqlaliyyətinin tanınması, ABŞ ilə Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin qurulması istiqamətində kömək göstərməsi xahiş edilirdi.

ADA Universitetinin rektoru Hafiz Paşayev qeyd edib ki, bu tarixi şəxsiyyətlər böyük ehtirama layiqdirlər. Onlarla bağlı bu cür tədbirlər tək bir universitetdə və tədqiqat institutunda deyil, geniş auditoriyalarda davam etdirilməlidir.

Rektor Georq Mamuliyaya və Ramiz Abutalıbova dəyərli bir kitabı ərsəyə gətirdiklərinə görə minnətdarlığını bildirdi, bu cür əhəmiyyətli işin davam etdirilməsinin vacibliyini söylədi. Mamuliyanın cümhuriyyət tarixi ilə bağlı böyük məlumatlara malik olduğunu deyən H.Paşayev onun alimlərimizin arxiv sənədlərini əldə etmələrinə dəstək verdiyini söylədi.

Sonda müəlliflər imzaladıqları kitabları tədbir iştirakçılarına hədiyyə etdilər.

# Ümumi təhsillə bağlı yeni qanun layihəsi hazırlanıb

Dünən Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirildi. Komitə sədri İsa Həbibbəyli iclasın gündəliyinə "Ümumi təhsil haqqında" qanun layihəsinin daxil olunduğunu deyərək bildirdi ki, sənəd 5 fəsil 33 maddədən ibarətdir.

Bu qanun layihəsi Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, ölkəmizdə ümumi təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir. Komitə sədrinin sözlərinə görə, sənəd hazırlanarkən bir çox ölkələrin təhsil qanunvericiliyi nəzərdən keçirilib: "Bu qanun layihəsinin hazırlanması zamanı dünyanın bir çox qabaqcıl ölkələrinin təhsil qanunvericiliklərini öyrənmişik, onlardan özümüzə uyğun olanları təqdim etməyə çalışmışıq. Ən başlıcası isə, ölkəmizin reallığını, mövcud ənənələri bu qanun layihəsində nəzərdə tutmağa çalışmışıq".

Qanun layihəsinə görə, ümumi təhsil müəssisələrində tədris dili dövlət dili - Azərbaycan dilidir. Vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşmaya uyğun olaraq, təhsil müəssisələrində tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə də aparıla bilər. Tədrisi digər dillərdə aparılan ümumi təhsil müssisələrində isə Azərbaycan dili, ədəbiyyatı, tarixi və coğrafiyasının tədrisi mütləq olmalıdır.

"Ümumi təhsilin təşkili" adlı maddəyə əsasən ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qızıl və ya gümüş medalla təltif ediləcəklər. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş beynəlxalq fənn olimpiadalarının qalibləri istənilən ixtisaslar üzrə, respublika fənn olimpiadalarının, yüksəksəviyyəli beynəlxalq müsabiqələrin və yarışların qalibləri müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunacaqlar.

Sənədə görə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslər, ağır, xüsusilə ağır cinayət törətməsinə görə məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslər, fəaliyyət qabiliyyətsizliyinə və ya məhdud fəaliyyət qabiliyyətli olmasına, habelə barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş siyahıda göstərilən xəstəliklərə görə pedaqoji fəaliyyətlə məşğul olmasına qadağa qoyulmuş şəxslər pedaqoji fəaliyyətlə məşğul ola bilməzlər. Həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi etik davranış qaydalarını pozduğuna görə əmək müqaviləsinə xitam verilmiş pedaqoji işçi 1 il müddətində pedaqoji fəaliyyətlə məşğul ola bilməz.

Komitə sədri onu da diqqətə çatdırdı ki, ümumi təhsil müəssisəsi əlavə gəlir əldə etmək məqsədilə nizamnaməsində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi sahibkarlıq fəaliyyəti növləri ilə (ödənişli təhsil xidmətləri, yardımçı təsərrüfatlardan əldə olunan məhsulların, şagirdlərin əl işlərinin satışından və icarədən əldə olunan gəlirlər və s.) məşğul ola bilər.

Gündəlikdəki məsələ ilə bağlı komitənin sədr müavini Bəxtiyar Əliyev, deputatlardan Asim Mollazadə, Şəmsəddin Hacıyev, Musa Qasımlı, Gövhər Baxşəliyeva, Ağacan Abıyev, Pərvin Kərimzadə və Kamilə Əliyeva çıxış edərək fikir və təkliflərini səsləndirdilər. Qanun layihəsi birinci oxunuş üçün Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın nümayəndə heyəti ATƏT-in Nazirlər Şurasının 25-ci iclasında iştirak edəcək

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Nazirlər Şurasının 25-ci iclasında iştirak etmək üçün İtaliyanın Milan şəhərinə yola düşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclas çərçivəsində Elmar Məmmədyarovun çıxışı və ikitərəfli görüşləri nəzərdə tutulub.

# Bakıda Azərbaycan, İran, Rusiya və Türkiyənin İKT nazirlərinin dördtərəfli görüşü keçirilib

"Bakutel-2018" XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisi çərçivəsində Azərbaycan, İran, Rusiya və Türkiyə arasında İKT sahəsində regional əməkdaşlıq barədə dördtərəfli görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi kommunikasiyalar naziri Konstantin Noskov, Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan, İranın informasiya-kommunikasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi iştirak edib.



Görüşdə startap ekosistemlərinin inkişafı, peyk, poçt xidmətləri, kibertəhlükəsizlik, beynəlxalq fiber-optik şəbəkələrin inkişafı sahəsində əməkdaşlıq, texnologiya parklarının layihələndirilməsi, eləcə də idarə olunması ilə bağlı məlumat və təcrübə mübadiləsi məsələləri müzakirə edilib.

Nazirlər kommersiya məqsədli peyk xidmətləri, birgə kibertəlimlərin təşkili, poçt xidmətləri sahəsində daşıma və tranzit imkanlarından istifadə, milli kibertəhlükəsizlik qurumlarının koordinasiyalı fəaliyyətinə dair də fikir mübadiləsi aparıblar.

Sonda qeyd olunan sahələrdə səmərəli əməkdaşlıq, birgə təlim, tədqiqat işləri, bilik və təcrübə mübadiləsi aparılması, eyni zamanda, dördtərəfli konsorsiumun yaradılması qərara alınıb. İran tərəfinin təklifi ilə növbəti eyni tərkibli görüşün İranda keçirilməsi razılaşdırılıb.

# XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisi açılıb

Dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək texnologiyalar "Bakutel 2018" sərgi və konfransının açılışı ilə "Yüksək Texnologiyalar Həftəsi"nə start verilib.

AZƏRTAC xəbər verir ki, tədbirin təntənəli açılış mərasimində nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə çıxış edib. Nazir qeyd edib ki, "Bakutel" sərgisi İKT sənayesi mütəxəssislərinin ənənəvi görüş yerinə və regionun ən nəhəng İKT tədbirinə çevrilib. Biznes strukturlarının rəhbərləri, peşəkarlar "Bakutel" sərgisinin platformasında qlobal məsələləri həll edir, perspektiv layihələri müzakirə edir və müxtəlif qərarlar qəbul edir. Eyni zamanda, sərgidə İKT sahəsinin ən son nailiyyətləri, innovasiyalar nümayiş olunur, bu sahədə beynəlxalq əməkdaşlıq imkanları üçün şərait yaradılır. Mərasimə toplaşanları və qonaqları təbrik edən nazir tədbir iştirakçılarına uğurlu iş arzulayıb.



Beynəlxalq Telekommunikasiya İttifaqının (ITU) MDB ölkələri üzrə regional bölməsinin rəhbəri Kirill Oparin ITU İttifaqının baş katibi Haulin Çjaonun sərgi iştirakçılarına ünvanlanmış salamlama məktubunu oxuyub. Məktubda ITU İttifaqı tərəfindən reallaşdırılan çoxsaylı layihələrdə Azərbaycanın artan rolu və ölkəmizin sənayenin beynəlxalq miqyasda gələcək inkişafı xüsusilə vurğulanıb.

"Caspian Event Organisers" şirkətinin direktoru Edvard Stron sərgidə dünyanın 20 ölkəsini təmsil edən 230 şirkətin iştirak etdiyini bildirib. O, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, Beynəlxalq Telekommunikasiya İttifaqına, Rabitə Sahəsində Beynəlxalq Əməkdaşlıq Birliyinə (RSS), sponsorlara və tərəfdaşlara öz təşəkkürünü bildirib.

Sərgidə rəqəmsallaşdırma, "Big Data", "M2M", Əşyaların interneti, bank texnologiyaları, "4-5G" mobil texnologiyalar, optik lif və "bulud" texnologiyaları sahəsində xidmətlər, kibercinayətkarlığın qarşısını almağın ən son üsulları, dövlət xidmətləri, elektron səhiyyə, süni intellekt, mobil cihaz və ləvazimatlar, "Ağıllı şəhər", pilotsuz uçuş aparatlarını və dronları idarəetmə sistemləri və bir sıra digər sahələr üzrə həll variantları təqdim edilir.

Bu il "Bakutel" sərgisinin fəxri qonaqları arasında Rusiya, Əfqanıstan, Belarus, Bolqarıstan, İran, Qazaxıstan, Qırğızıstan, Latviya, Türkmənistan, Türkiyə, Özbəkistan və digər ölkələri təmsil edən nazirlər və ali qonaqlar yer alır.

"Bakutel 2018" sərgisində 10 ölkə - İtaliya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Belarus, ABŞ, Sloveniya, Türkiyə, Fransa, Xorvatiya və Polşa milli stendlər ilə çıxış edir. Sərginin debütantları isə iştirakçıların ümumi sayının 30 faizini təşkil edir. Debütantlar arasında "Silk Way Biznes Aviasiya", Azərbaycan Dövlət Reklam Agentliyi (ADRA), "Sistematiks" (Rusiya), "Suntech" (Polşa), "Azmonbat" (Azərbaycan), "BMS Global" (Azərbaycan), "Hostimul" (Azərbaycan), "IPG IRE-Polus" (Rusiya), "Xerrow Technologies" (BƏƏ) və digərləri yer alır.

Azərbaycanın aparıcı dövlət İKT strukturları Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən təşkil edilmiş bir milli stenddə təqdim edilir. Sərginin yeni istiqaməti neft sahəsindən tutmuş əyləncə sektoruna kimi müxtəlif sahələr üzrə tapşırıqları həll etmək üçün kiçik və orta sahibkarlıq subyektlərini, özəl texnologiya layihəçilərini cəlb edərək onların biznesinin inkişafına şərait yaratmaqdır. Bu istiqamət Azərbaycan Respublikasının Kiçik və Orta Biznesə Dəstək Agentliyinin dəstəyi ilə inkişaf edir.

Bu il sərgidə müxtəlif innovasiya mərkəzlərini təmsil edən rekord sayda - 50-dən artıq "startap" təmsil olunub. Məhsulların əsas hissəsi virtual və artırılmış reallıq texnologiyalarının tətbiqinə, veb-sayt və mobil tətbiqlərin hazırlanmasına əsaslanır.

Sərgi hər il keçirilən görüş və konfranslar ilə yanaşı, "Bakutel Tech Talks" proqramının - təşkilatçıların sərgi çərçivəsində hazırladığı müzakirə platformasının keçiriləcəyini elan edir. İki gün ərzində - 5 və 6 dekabr tarixlərində "Bakutel Tech Talks" tədbiri nəhəng beynəlxalq IT şirkətlərinin təcrübəsini, sənayenin yeniliklərini və istehsalat sirlərini nümayiş etdirməklə bir sıra faydalı məlumatlar və qeyri-adi məzmunu ilə auditoriyanın diqqətini cəlb edəcək.

# İtirilmiş 210 meqavat güc bərpa olunub

Cari ilin iyul ayında baş vermiş məlum hadisənin təkrarlanmaması üçün sentyabr ayından etibarən ölkənin elektrik enerjisi sistemi üzrə "itirilmiş" generasiya güclərinin bərpası, sabit generasiya güclərinin təmin edilməsi üçün "Azərenerji" tərəfindən tədbirlər görülür.

Bu tədbirlər nəticəsində 780 meqavat layihə gücündə olan "Cənub" elektrik stansiyasının yükü 520 meqavatdan 700 meqavata qaldırılmaqla 180 meqavat itirilmiş güc bərpa olunub. Müqayisə üçün qeyd edək ki, 180 meqavat güc orta hesabla 5 rayonun elektrik enerji tələbatı miqyasındadır. "Cənub" ES-də aparılan planlı təmir işləri davam edir və yaxın zamanlarda yük məhdudiyyəti tam aradan qaldırılacaq.

"Şimal" ES-də də aparılan təmir və bərpa işləri nəticəsində stansiyanın gücü 350 meqavatdan 370 meqavata yüksəlib. Eyni zamanda, "Şimal" ES-dən Abşeron regionunun enerji təminatını təmin edən elektrik verilişi xətlərində profilaktik təmir işləri aparılıb, stansiyanın təsirlənmə sistemində olan qüsur "ABB" şirkətinin nümayəndələrinin iştirakı ilə həll edilib, nəticədə 20 meqavat güc məhdudiyyəti aradan qaldırılıb.

"Bakı" ES-də isə yarımstansiyadan çıxan 110 kilovoltluq 3-cü və 4-cü "8 km" elektrik verilişi hava xətlərinin 2,1 kilometrlik hissəsindəki naqillərin en kəsiyi böyük olan naqillərlə əvəz edilib və bununla da "Bakı" ES-də 10 meqavat yük məhdudiyyəti aradan qaldırılıb. Nəticədə stansiyanın yükü 80 meqavatdan 90 meqavata çatdırılıb.

# İndiyədək Bakı-Tbilisi-Ceyhan kəməri ilə 373,8 milyon ton neft ötürülüb

Bu barədə SOCAR-ın yaydığı məlumatda bildirilir ki, cari ilin noyabr ayı ərzində Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə 2,2 milyon ton Azərbaycan nefti nəql olunub.

Cari ilin yanvar-noyabr ayları ərzində isə kəmər vasitəsilə təqribən 30,4 milyon ton neft ötürülüb. Üç rüb ərzində BTC üzrə əməliyyat xərclərinə təxminən 87 milyon, əsaslı xərclərə təqribən 21 milyon dollar sərf edilib.

Xatırladaq ki, 1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyunundan istismardadır. Hazırda BTC boru kəməri Azərbaycandan əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, boru kəməri vasitəsilə digər xam neft və kondensat həcmləri də, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur.

# Hüquqşünas kadrları yetişdirən mərkəz

## Bu il Bakı Dövlət Universitetinin hüquq fakültəsinin 90 yaşı tamam olur

Hüquq fakültəsi bu gün Bakı Dövlət Universitetinin (BDU) aparıcı, nüfuzlu və ən böyük fakültələrindən biridir. Onun tarixi böyük və zəngindir. Fakültənin açılmasının zəruriliyi Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi "Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında" 1 sentyabr 1919-cu il tarixli qanunda da öz əksini tapmışdır. Bu sənəddə Bakıda dörd fakültədən - Şərq şöbəsi olan tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət dövlət universitetinin yaradılması nəzərdə tutulsa da, yalnız ikisi (tibb və tarix-filologiya) üçün müvəqqəti ştat və smeta müəyyən edilmişdi. Həmin dövrdə hüquq fakültəsini sırf maddi-texniki səbəblər və hüquqşünas kadrların yoxluğundan açmaq mümkün olmamışdır. Nəhayət, 1927-1928-ci dərs ilində Şərq fakültəsinin nəzdində hüquq şöbəsi fəaliyyətə başlamışdır. Bu, Azərbaycan xalqının tarixində ilk dəfə olaraq məhkəmə və inzibati-dövlət aparatı orqanlarında çalışa bilən milli hüquqşünas kadrların hazırlanması üçün başlanğıc idi. hüquq şöbəsinin bazasında isə 1928-ci il dekabrın 17-də iki şöbədən - məhkəmə və inzibati-təsərrüfat şöbələrindən ibarət olmaqla müstəqil fakültə təşkil edilmişdir. Dövlət və hüquq nəzəriyyəsi üzrə görkəmli mütəxəssis, tanınmış hüquqşünas alim, professor A.O.Mişel Azərbaycan Dövlət Universitetinin (ADU - indiki BDU) hüquq fakültəsinin ilk dekanı təyin olunmuşdur. Həmin dövrdə hüquq fakültəsinin təşkili və formalaşdırılması prosesi çox çətin şəraitdə getmişdir. Çünki Azərbaycanda elmi dərəcəli milli hüquqşünas kadrlar, ali hüquq təhsilli alim-pedaqoqlar, demək olar ki, yox idi. Bunu nəzərə alaraq Moskva, Saratov və digər universitetlərdən hüquqşünas alimlər Bakıya dəvət edilirdilər.

11 kafedra ilə fəaliyyətə başlayan hüquq fakültəsi qısa müddətdə universitetin ən aparıcı fakültələ-rindən birinə çevrildi. 1930-cu ilin iyununda ADU-nun Hüquq fakültəsinin bazasında Sovet Dövlət Quruculuğu və Hüquq İnstitutu yaradıldı və o, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin ixtiyarına verildi. Hüquq fakültəsi 1930-1933-cü illərdə Sovet Dövlət Quruculuğu və Hüquq İnstitutu kimi fəaliyyət göstərdi, 1933-cü ildə Sovet Dövlət Quruculuğu və Hüquq İnstitutunun tələbə-müəllim kontingenti İctimai-İqtisadi İnstitutun tərkibinə verildi və həmin institutun hüquq fakültəsinə çevrildi. Hüquq fakültəsinin tarixinə onun ilk azərbaycanlı dekanı kimi (Böyükağa Mirqasım oğlu Talıblının Sovet Dövlət Quruculuğu və Hüquq İnstitutunun direktoru kimi fəaliyyəti nəzərə alınmasa) daxil olmuş dosent M.Y.Quliyev fakültəyə 3 il başçılıq etmişdir.

Bu təhsil ocağının Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna çevrilməsi ilə əlaqədar bir sıra kadr islahatları aparılmışdır. 1928-ci ildə ADU-nun Şərq fakültəsinin Hüquq şöbəsinə müəllim kimi işə cəlb edilən professor Qasım Cəfərov 1936-cı ildə Xalq Təsərrüfatı İnstitutunun hüquq fakültəsinin dekanı seçilmişdir. Beləliklə, Petroqrad Universitetinin hüquq fakültəsinin 1916-cı il məzunu və mülki hüquq üzrə görkəmli alim olan professor Q.Cəfərov müstəqil hüquq fakültəsinin tarixinə onun ikinci azərbaycanlı dekanı kimi daxil olmuşdu.

1941-ci ildə müharibənin başlanması, ali məktəb müəllimlərinin və tələbələrinin əksəriyyətinin cəbhəyə getməsi ilə əlaqədar bir sıra ali məktəblər, o cümlədən Azərbaycan Xalq Təsərrüfatı İnstitutu ADU-ya birləşdirildi. Hüquq fakültəsi o vaxtdan etibarən universitetin tərkibinə birdəfəlik daxil oldu.

Müharibədən sonrakı illərdə universitet sürətlə böyüyür, onun yeni fakültə və kafedraları açılır, professor-müəllim heyətinin və tələbə kontingentinin sıraları genişlənirdi. 1947-ci ildə hüquq fakültəsinin dekanı Q.Cəfərov Moskva Dövlət Universitetində "Azərbaycanda sovet hakimiyyəti qurulana qədər və ondan sonrakı dövrdə su hüququ" mövzusunda ilk doktorluq dissertasiyası müdafiə edərək hüquq elmləri doktoru alimlik dərəcəsi almışdır. Vahid Qəhrəmanov isə 1950-ci ildə SSRİ Elmlər Akademiyası Dövlət və Hüquq İnstitutunda "Ailə-nikah münasibətləri sahəsində cinayətlər" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bir çox azərbaycanlı aspirantlar Moskvada, Leninqradda, Kiyevdə və eləcə də ADU-nun özündə namizədlik dissertasiyası müdafiə edərək fakültənin professor-müəllim heyətinin tərkibini elmi kadrlarla zənginləşdirmişdilər. Bunlardan Qara Məmmədov, Cəfər Mövsümov, Qasım Manayev, Murtuz Ələsgərov, Əli Əliyev, Məmməd Xələfov, Əjdər İbrahimov, Məhbubə Qafarzadə, Aron Milman, Məsumə Məlikova və digərləri fakültədə elmi-pedaqoji fəaliyyətə məhz bu dövrdə başlamışdılar. A.A.Milman 1965-ci ildə "XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanın siyasi quruluşu", C.H.Mövsümov 1966-cı ildə "1917-1937-ci illərdə Azərbaycan SSR-də məhkəmə və cinayət prosesi", M.N.Ələsgərov 1968-ci ildə "SSRİ-nin Asiya və Afrikanın gənc müstəqil dövlətləri ilə beynəlxalq hüquqi münasibətləri", M.F.Məlikova 1973-cü ildə isə "XIX əsrin II yarısında - XX əsrin başlanğıcında Azərbaycan maarifçilərinin siyasi və hüquqi baxışları" mövzusunda doktorluq dissertasiyalarını uğurla müdafiə etmişlər.

ADU-nun və onun hüquq fakültəsinin, ümumiyyətlə isə bütün Azərbaycan cəmiyyətinin inkişafında yeni mərhələ 1969-cu ildən başlayır. Ümummilli lider Heydər Əliyevə qədər hüquq fakültəsinə daxil olanlar əsasən o dövrdə partiya və digər dövlət orqanlarının vəzifəli şəxslərinin övladları idisə, respublika rəhbəri bu bürokratik mexanizmi sındırdı, hüquq fakültəsi və elmini tamamilə xalqın fakültəsinə çevirdi. Əsas məsələlərdən biri də o dövrdə hüquq təhsili və elmi sahəsində çalışan alimlərin milliləşdirilməsi olmuşdur. Məhz bu dövrdən başlayaraq hüquq elmi və təhsilini aparan alimlər sırasına azərbaycanlıların cəlb edilməsi prosesinə sürətlə başlanıldı və 1980-ci illərin əvvəllərində bu prosesə tam nail olundu.

Digər əsas istiqamətlərdən biri də insanların hüquq təhsili və mədəniyyətinin genişləndirilməsi, cəmiyyətdə hüquqi təfəkkürün, hüquqi mədəniyyətin və hüquqi düşüncə tərzinin inkişafı idi ki, bu da insan hüquq və azadlıqlarının təmin edilməsində mühüm rola malikdir. Respublika çərçivəsində 1970-ci ilin dekabr ayının 4-də qəbul edilmiş "Zəhmətkeşlərin hüquqi tərbiyəsini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar da məhz Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilmişdir. 1971-ci ildə universitetdə məhz hüquq fakültəsinin yardımı ilə ictimai əsaslarla işləyən Hüquq məsləhətxanası açılmışdır. 1974-cü ildə birbaşa Heydər Əliyevin göstərişi ilə Bakı şəhəri İcraiyyə Komitəsi nəzdində Hüquqi biliklər Universiteti fəaliyyətə başladı ki, bu işdə də əsas məqsəd hüquqi informasiyaların geniş yayılması olmuşdur.

Respublikada hüquqşünas kadrlara böyük ehtiyac olduğunu görən Heydər Əliyevin birbaşa göstərişi ilə hüquq fakültəsi nəzdində "Sovet quruculuğu" ixtisası üzrə qiyabi şöbə yaradılmışdır. Əsas məqsədi dövlət quruculuğu sahəsində kadrlar hazırlamaq olan bu ixtisası qurtaran şəxslər dövlət və hökumət qurumlarında mühüm vəzifələrə göndərilirdilər.

Heydər Əliyevin o dövrdə uzaqgörənliyinin əsas istiqamətlərindən biri də Azərbaycanda beynəlxalq hüquq məktəbinin qurulması olmuşdur. Bu zaman SSRİ miqyasında Moskva və Kiyevlə bərabər, Bakının da xarici ölkələrə diplomatlar və beynəlxalq hüquq sahəsində mütəxəssislər hazırlayan bir mərkəzə çevrilməsi ulu öndərin siyasətinin nəticəsi idi. Hüquq fakültəsində Beynəlxalq hüquq ixtisası üzrə kadrların yetişdirilməsinə başlanılması iki əsas istiqamətdə qurulmağa başlanıldı. Birincisi, bu sahədə tədrisi aparan azərbaycanlı alimlərin hazırlanması həyata keçirildi. İkincisi isə, dünyanın 60-dan çox ölkəsi üçün (Yaxın Şərq, Asiya, Afrika, Latın Amerikası və s. ölkələr) milli kadrların hazırlanmasında Azərbaycanın rolu artmağa başladı. Hazırda həmin məzunlar öz ölkələrində mühüm dövlət vəzifələrində çalışırlar.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da hüquq fakültəsinin inkişafı ümummilli liderin adı ilə bağlıdır. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan uğurlu daxili və xarici siyasətin tərkib hissəsi kimi elm və təhsil sahəsindəki nailiyyətlər hüquq fakültəsində də müvəffəqiyyətlə davam etdirilir.

Bu gün hüquq fakültəsində 25-dən çox hüquq elmləri doktoru, professor və 60-dan çox hüquq üzrə fəlsəfə doktoru, dosent olmaqla ümumilikdə 100-dən çox professor-müəllim heyəti fəaliyyət göstərir. Hüquq ixtisası üzrə Avropada, ABŞ, Türkiyə və digər xarici dövlətlərdə təhsil almış azərbaycanlı məzunlar da indi fakültənin müvafiq bakalavr və magistratura pillələrində, o cümlədən ingilis bölmələrində tədris prosesini uğurla aparırlar.

Fəaliyyət göstərdiyi müddətdə fakültə on minlərlə yüksək ixtisaslı hüquqşünas kadrlar yetişdirib, respublikanın hüquq-mühafizə orqanlarını, dövlət və hökumət qurumlarını hüquqşünas kadrlarla təmin etmişdir. BDU-nun hüquq fakültəsi respublikada hüquq elminin inkişafında və hüquq üzrə elmi-pedaqoji kadrların hazırlanmasında əsas aparıcı mərkəzdir. 2008-2009-cu tədris ilindən fakültədə tədrisin Bolonya sisteminin tətbiqinə başlanılmışdır. Beynəlxalq təcrübə nəzərə alınmaqla 2014-2015-ci tədris ilindən isə yeni təhsil standartları işlənib hazırlanmışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin yeni layihəsi olan hüquqşünaslıq ixtisası üzrə sabah qruplarının mərkəzi kimi də məhz BDU-nun hüquq fakültəsi müəyyən edilmişdir.

Hazırda burada təhsil bakalavr, magistratura və ikipilləli doktorantura sistemində Azərbaycan, ingilis, alman və rus dillərində davam etdirilir. Fakültədə əyani şöbədə 1161, qiyabi şöbədə 374, magistraturada isə 180 tələbə təhsil alır. Hüquq fakültəsində bakalavr təhsil pilləsində 1 ixtisas - hüquqşünaslıq ixtisası üzrə 83 fənn, magistratura təhsil pilləsində isə 17 ixtisaslaşma üzrə 250-dən artıq fənn tədris olunur.

Fakültədə magistratura pilləsi üçün müasir dövrün tələblərinə uyğun tədris planları, fənn proqramları, dərsliklər işlənib hazırlanmışdır. Təkcə 2017-2018-ci tədris ilində fakültə üzrə nəşrlərin sayı 200-ə yaxın olmuşdur. Magistratura pilləsində bir çox ixtisaslar üzrə kadrlar hazırlanır: dövlət və hüquq nəzəriyyəsi və tarixi (Azərbaycan və rus bölmələri); dövlət hüququ (Azərbaycan və rus bölmələri); cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası (Azərbaycan və rus bölmələri); mülki və təsərrüfat hüququ (Azərbaycan və rus bölmələri); beynəlxalq hüquq (Azərbaycan və rus bölmələri); transmilli cinayət hüququ (Azərbaycan və ingilis bölmələri); insan hüquqları (ingilis bölməsi); kommersiya hüququ (ingilis bölməsi); avropa hüququ (ingilis və alman bölmələri); dəniz və enerji hüququ (ingilis bölməsi), 2014-2015-ci tədris ilindən isə informasiya hüququ (Azərbaycan və ingilis bölmələri); 2018-2019-cu tədris ilindən isə yeni yaradılmış 6 ixtisas - əqli mülkiyyət hüququ (Azərbaycan və ingilis bölmələri); İnzibati hüquq, inzibati proses, iqtisadi və maliyyə hüququ (Azərbaycan və ingilis bölmələri); turizm hüququ (Azərbaycan bölməsi); idman hüququ üzrə (Azərbaycan bölməsi); tibbi hüquq (Azərbaycan bölməsi); əmək hüququ; sosial təminat hüququ (Azərbaycan bölməsi) qəbul həyata keçirilmişdir.

Hüquq fakültəsində son 15 ilə yaxın müddətdə bakalavr və ikinci ali təhsil üzrə Buraxılış Yekun Dövlət Attestasiya Komissiyasına daxili işlər naziri general-polkovnik Ramil Usubov rəhbərlik edir. Bu da məzunların məsuliyyətini bir daha artırmış olur. 2011-2012-ci tədris ilindən isə beynəlxalq hüquq ixtisasının hüquq fakültəsinə birləşdirilməsindən sonra bu ixtisas üzrə Buraxılış Yekun Dövlət Attestasiya Komissiyasına Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq üzrə elmlər doktoru, professor Fərhad Abdullayev rəhbərlik etmişdir.

Magistratura tədris pilləsində də Dövlət Attestasiya Komissiyasının sədrləri kimi müvafiq dövlət orqanlarının rəhbərləri təyin edilmişdir. Məsələn, beynəlxalq hüquq ixtisası üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq elmləri doktoru, professor Fərhad Abdullayev; dövlət və hüquq nəzəriyyəsi və tarixi və dövlət hüququ ixtisasları üzrə Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri, hüquq üzrə fəlsəfə doktoru, dosent Səfa Mirzəyev, cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası və transmilli cinayət hüququ ixtisasları üzrə Respublikanın Hərbi prokuroru, hüquq üzrə fəlsəfə doktoru Xanlar Vəliyev, avropa hüququ ixtisası üzrə ədliyyə nazirinin müavini, hüquq elmləri doktoru, professor Azər Cəfərov, mülki və təsərrüfat hüququ ixtisası üzrə ədliyyə nazirinin müavini Toğrul Musayev, insan hüquqları ixtisası üzrə Milli Məclisin deputatı, AMEA Hüquq və İnsan haqları İnstitutunun direktoru, hüquq elmləri doktoru, professor Aytən Mustafazadə, kommersiya hüququ ixtisası üzrə əmək və əhalinin sosial müdafiə naziri, hüquq üzrə fəlsəfə doktoru Sahil Babayev, dəniz və enerji hüququ ixtisası üzrə nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirliyi yanında Dövlət Dəniz Agentliyinin rəhbəri Qüdrət Qurbanov rəhbərlik edirlər.

Hüquq fakültəsində hüquq üzrə fəlsəfə doktoru və hüquq üzrə elmlər doktoru proqramlarında müvafiq olaraq 100 və 22 doktorant-dissertant hüquq elminin 12 ixtisası üzrə elmi-tədqiqat işləri aparır.

Dissertasiya şurasının tərkibində əcnəbi alimlər də olmaqla 17 elmlər doktoru daxildir. 2013-cü ildən bugünədək dissertasiya şurasında 15 nəfər hüquq elmləri doktoru, 84 nəfər isə hüquq üzrə fəlsəfə doktoru dissertasiyasını uğurla müdafiə etmişdir.

Beləliklə, uzun müddət respublika üzrə hüquqşünas kadrların əsas hazırlanma mərkəzi olan BDU-nun hüquq fakültəsində müxtəlif istiqamətlər üzrə elmi məktəblər tam formalaşmışdır. BDU-da qeyd edilən klassik hüquq sahələri üzrə elmi məktəblərdən başqa, son dövrlər yeni hüquq sahələri üzrə də elmi məktəblərin (dəniz və enerji hüququ; kommersiya hüququ; insan hüquqları; transmilli cinayət hüququ; informasiya hüququ; avropa hüququ; əqli mülkiyyət hüququ; inzibati hüquq, inzibati proses, iqtisadi və maliyyə hüququ; turizm hüququ; idman hüququ; tibbi hüquq; əmək hüququ; sosial təminat hüququ) formalaşmasına çalışılır. Bu sahədə xarici elmi məktəblərin bazasından istifadə edilir.

Fakültədə ələbə Elmi Cəmiyyəti, Tələbə Həmkarlar Təşkilatı və Tələbə Gənclər Təşkilatı aktiv fəaliyyət göstərir. Tələbə Elmi Cəmiyyəti artıq 3 ildir ki (2015-ci ildən), "Hein Online" məlumat bazasına daxil olan Tələbə Hüquq Jurnalını buraxır.



Fakültə Prezident təqaüdçülərinin sayına görə BDU-da birinci yerdədir. Bundan başqa, əlaçı və istedadlı tələbələr üçün "Heydər Əliyev adına təqaüd", "Murtuz Ələsgərov adına təqaüd", "Məmməd Xələfov adına təqaüd" və s. təsis edilmişdir.

Fakültənin özünün ayrıca ixtisaslaşdırılmış kitabxanası fəaliyyət göstərir. Burada "Beynəlxalq hüquq və inteqrasiya problemləri" (ingilis dilində) və "Azərbaycan hüquq jurnalı" adlı xüsusi elmi-analitik və praktiki jurnal buraxılır. İldə 3 dəfə buraxılan bu jurnallar Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasında dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına (hüquq, iqtisadiyyat və siyasi elmlər üzrə) daxildir.

2012-ci ildən başlayaraq hər il may ayında fakültədə ümummilli lider Heydər Əliyevin anadan olması ilə əlaqədar olaraq beynəlxalq elmi-praktiki konfranslar keçirilir və çox həcmli konfrans materialları 2 cilddə nəşr edilir. 2017-ci ildən isə fakültədə "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının bilavasitə təşkilatçılığı ilə 10 dekabr Beynəlxalq insan hüquqları gününə həsr olunan "dəyirmi masa" keçirilir. Son 5 ildə hüquq fakültəsi 20-dən artıq beynəlxalq elmi-praktiki konfransın təşkilatçılarından olmuşdur.

Hüquq fakültəsi fəaliyyətə başladığı ilk vaxtlardan etibarən keçmiş SSRİ-nin nüfuzlu elm-təhsil mərkəzləri ilə sıx əlaqələr yaratmış, bu əlaqələr tədrisin keyfiyyətinin və mütəxəssislərin ümumpeşə səviyyəsinin yüksəldilməsinə xeyli dərəcədə müsbət təsir göstərmişdir. Bu əlaqələr bu gün də yüksək səviyyədə inkişaf etdirilir. Belə ki, fakültənin hazırda ABŞ-ın Tüleyn Universiteti, Almaniyanın Vürzburq və Martin Lüter adına Halle-Vittenberq universitetləri, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Türkiyənin Ankara və İstanbul Dövlət universitetləri, T.Q.Şevçenko adına Kiyev Milli Universiteti, Tbilisi Dövlət Universiteti, Qazaxıstanın əl-Fərabi adına Dövlət Universiteti və A.Qumilyov adına Avrasiya Universitetinin Hüquq fakültələri ilə, habelə Almaniyanın Maks Plank adına Beynəlxalq və Müqayisəli Cinayət Hüququ İnstitutu, Moskva Dövlət Hüquq Akademiyası, Ukrayna Milli Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutu və digər mötəbər elm-təhsil ocaqları ilə geniş elmi əlaqələri qurulmuşdur.

Son dövrlər isə bu əlaqələr daha böyük miqyasda genişlənmişdir. Belə ki, BDU və Amerika İnkişaf Agentliyi arasında dəniz və enerji hüququ sahəsində magistratura proqramının təşkili ilə bağlı 2012-ci il oktyabr ayında Memorandum imzalanmışdır.

BDU ilə Almaniyanın Maks Plank adına Beynəlxalq və Müqayisəli Cinayət Hüququ İnstitutu arasında 2013 və 2014-cü illərdə imzalanmış memorandumlara əsasən isə artıq dörd ildir ki, hüquq fakültəsində transmilli cinayət hüququ ixtisası üzrə magistratura pilləsinə qəbul həyata keçirilir. Bundan başqa, hüquq fakültəsində "Kommersiya hüququ" kimi yeni magistratura ixtisaslaşmasında Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri üçün ingilis dilində geniş kadr hazırlığı həyata keçirilir. İnsan hüquqları magistraturası üzrə fəaliyyət isə Azərbaycan Respublikası Prezidentinin 2006 və 2011-ci il tarixli İnsan hüquqları üzrə Milli Fəaliyyət Proqramlarına uyğun reallaşdırılır.

Avropa hüququ ixtisaslaşması Almaniyanın Vürzburq Universiteti və BDU arasında imzalanmış 2011 və 2014-cü il tarixli memorandumlara əsasən qurulmuşdur. Tədrisinin ingilis və alman dilində aparıldığı bu istiqamətdə artıq 2012-ci ildən ikili diplomların verilməsi həyata keçirilir. Bu vaxta qədər 30-dan çox BDU məzununa Bakı Dövlət Universitetinin diplomu ilə yanaşı, avropa hüququ ixtisası üzrə Almaniyanın Vürzburq Universitetinin diplomları da verilmişdir.

Hüquq fakültəsi beynəlxalq əməkdaşlığını doktorantların hazırlanması istiqamətində də həyata keçirir. Belə ki, 2018-ci ildə BDU və Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universiteti arasında imzalanmış sazişə əsasən hüquq sahəsində birgə doktorant hazırlığı həyata keçiriləcəkdir. Belə ki, sazişlə hüquq üzrə fəlsəfə doktoru proqramı ilə 3 nəfər doktorant qəbulunun həyata keçirilməsi nəzərdə tutulur ki, bu da gələcəkdə elm sahəsində beynəlxalq əməkdaşlığın daha da inkişafına təkan verəcəkdir.

Fransanın Leon - 2 Universiteti ilə əqli mülkiyyət hüququ magistratura ixtisaslaşması sahəsində də ikili diplom proqramı üzrə danışıqların uğurla nəticələnəcəyi gözlənilir.

Hüquq fakültəsi respublika daxilində də müvafiq elm-təhsil ocaqları ilə sıx elmi əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Hazırda fakültə AMEA Fəlsəfə İnstitutu, AMEA Hüquq və İnsan Haqları üzrə Elmi-Tədqiqat İnstitutu, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Milli Aviasiya Akademiyası, Ədliyyə Akademiyası, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzi, Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsi, Gömrük Akademiyası və digər elm-təhsil mərkəzləri ilə sıx əməkdaşlıq edir.

Fakültənin strukturuna 11 kafedra, Kriminalistika laboratoriyası, Hüquq klinikası, Dəniz və enerji hüququ Mərkəzi və İxtisaslaşdırılmış kitabxana daxildir.

Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasına AMEA-nın müxbir üzvü, professor Məsumə Məlikova rəhbərlik edir.

Konstitusiya hüququ kafedrası isə professor Ziyafət Əsgərovun rəhbərliyi ilə fəaliyyət göstərir. Bu sahədə elmi məktəbin formalaşmasında professor Murtuz Ələsgərovun xidmətləri əvəzedilməzdir.

Cinayət hüququ və kriminologiya kafedrasının müdiri professor Firudin Səmədərovdur. Bütövlükdə bu sahədə elmi məktəbin formalaşmasında professor Vahid Qəhrəmanovun, professor Tofiq Qafarovun, professor İsa Məmmədovun xidmətləri olmuşdur. Hazırda kafedrada 12 müəllim çalışır, onlardan ikisi hüquq üzrə elmlər doktoru, on nəfər isə hüquq üzrə fəlsəfə doktorudur.

"İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrası Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın UNESCO və digər beynəlxalq təşkilatlarda apardığı uğurlu fəaliyyətin məntiqi nəticəsi olaraq 2015-ci ildə BDU ilə UNESCO arasında imzalanmış sazişə əsasən yaradılmışdır.

Kriminalistika və məhkəmə ekspertizası kafedrasına professor Kamil Səlimov, Mülki hüquq kafedrasına professor Məhəbbət Dəmirçiyeva, Cinayət prosesi kafedrasına professor Firuzə Abbasova, Əmək hüququ kafedrasına professor Alış Qasımov rəhbərlik edir.

Beynəlxalq ümumi hüquq kafedrasının müdiri professor Rüstəm Məmmədovdur. Bu sahədə elmi məktəbin formalaşmasında professor Murtuz Ələsgərovun, professor Əyyub Əsgərovun, professor Lətif Hüseynovun, dosent Əli Məmmədlinin xidmətləri böyükdür.

Mülki proses və kommersiya hüququ kafedrasına dosent Elçin Xələfov, Beynəlxalq xüsusi hüquq kafedrasına dosent Əlizadə Məmmədov rəhbərlik edirlər.

BDU-nun Hüquq fakültəsi nəzdində fəaliyyət göstərən Hüquq klinikasının əsas məqsədi isə hüquqşünaslıq peşəsinin təcrübi aspektlərinin tələbələrə çatdırılmasına yönəlmiş tədris prosesinin təmin edilməsi, o cümlədən əhalinin aztəminatlı təbəqəsinə pulsuz hüquqi yardımın göstərilməsi və hüquqi təşviqat işinin aparılmasıdır.

Beləliklə, tam şəkildə dövlətçiliyimizin formalaşması və möhkəmləndirilməsinə xidmət etməklə, o cümlədən Azərbaycan cəmiyyətində xüsusi çəkiyə malik olmaqla hüquqşünas kadrların yetişdirilməsində hüquq fakültəsi xüsusi rola malikdir. Hüquq fakültəsi daim bu sahədə çalışan məzunları ilə fəxr edir.

***Əmir ƏLİYEV,***
***BDU-nun Hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor***

# Gəzməyə qərib ellər...

## Turistlər Azərbaycanı niyə seçir

*Əvvəli 1-ci səh.*

Turizmin inkişafı istiqamətində həyata keçirilən iritutumlu layihələr sayəsində əldə olunan nailiyyətlərin siyahısı ildən-ilə uzanır, statistik rəqəmlərin ötən illərlə müqayisəsi isə nikbin və daha yüksək nəticələrə nail olduğumuzu təsdiq edir.

Dövlət Statistika Komitəsinin açıqladığı məlumatda bildirilir ki, bu ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana dünyanın 194 ölkəsindən 2,4 milyon turist gəlmişdir. Bu rəqəm ötən ilin müvafiq dövrü ilə müqayisədə turistlərin sayının 6,1 faiz artdığını göstərir. Artımın coğrafiyası da maraqlıdır. Diqqəti cəlb edən tendensiya ondan ibarətdir ki, Azərbaycana bu ilin 10 ayı ərzində Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 8,3 faiz artmışdır. Bu artımın rəqəmlə ifadəsi 99,4 mindir. Amma onun dəfələrlə artması üçün real imkanlar mövcuddur və bu istiqamətdə ciddi addımlar atılır.

Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun getdikcə artması, davamlı islahatların həyata keçirilməsi, Bakının dünyanın ən gözəl paytaxtlarından birinə çevrilməsi, beynəlxalq əhəmiyyətli tədbirlərin bu şəhərdə keçirilməsi turist axınını gücləndirən amillərdəndir. Beş-altı il əvvəl Bakını Parislə, Milanla müqayisə edirdilərsə, bu gün əcnəbi turistlər Azərbaycan paytaxtının Milan, Roma və Parisdən üstün cəhətlərini sayırlar. Azərbaycan mədəniyyəti, Azərbaycan qonaqpərvərliyi, Azərbaycan tolerantlığı ölkəmizə təşrif buyuran istənilən əcnəbini valeh edir. Onlar Şərqə qonaq gəlsələr də özlərini öz vətənlərindəkindən daha yaxşı hiss edir, Qərblə Şərqin bənzərsiz sintezindən yüksək zövq alırlar. Azərbaycana səfər edən istənilən əcnəbi ağlasığmaz münasibətlərin, nadir insanpərvərliyin, qonağa sonsuz rəğbətin və unikal tolerantlıq mühitinin incəliklərinə heyran qalırlar.



Məhz bu amillərin toplusu turist axınlarının güclənməsinə səbəb olur. Simaldan - Rusiyadan və MDB ölkələrindən gələnlərin sayı da 4,1 faiz artmışdır. Rusiya 891 min nəfər turistlə Azərbaycana gələn qonaqların siyahısında liderlik edən ölkədir.

10 ayda Şərq ölkələrindən gələnlərin də sayı artmaqdadır. Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə ölkəmizə gələnlərin arasında ən çox artım İraq (13,7 faiz) və Oman vətəndaşlarının sayında (6,3 faiz) müşahidə olunur. Ümumilikdə Rusiyadan gələnlərin sayı bir, Körfəz ölkələrindən gələnləri sayı isə yarım milyon nəfərə yaxınlaşır.

Səyahət müasir insanın həyatının ayrılmaz hissəsidir. Hər bir kəsin çalışdığı, can atdığı odur ki, dünyada onu gözəlliyi və bənzərsizliyi ilə cəlb edən bütün yerləri qarış-qarış gəzsin. 196 dövlətin hərəsi bir baxış bucağından səyyah üçün maraqlıdır. Turizmdə önəm verilən amillər səyahətin təhlükəsizliyi, xidmətin yüksək səviyyəsi və qiymətlərin orta səviyyəli turistlər üçün əlçatanlığı ilə bağlıdır. Ümumdünya Turist Təşkilatı 2017-2018-ci illərdə ən çox səyahət edilən 10 ölkənin siyahısını dərc edib. Fransa 86,9 milyon turistlə birinci yerdədir. Turizm ÜDM-in 9 faizini təşkil edir və 3 milyon fransızı işlə təmin edir. Hamını valeh edən əsas abidə Eyfel qülləsidir. İspaniya 81,8 milyon turistlə ikinci yerdədir. ÜDM-in 14,4 faizi turizmin payına düşür. ABŞ nə qədər böyük və əzəmətli dövlət sayılsa da 76,9 milyon turistlə üçüncü yerdə qərarlaşıb. Amma o da var ki, ABŞ saya görə geridə qalsa da, turizmdən Fransa və İspaniyanın ikisinin birlikdə qazandığından da artıq gəlir götürür. Bu məbləğin illik həcmi 200 yüz milyard dollardan çoxdur.

60,7 milyon turistlə dördüncü yerdə qərar tutan Çin isə səyahətə hamıdan çox - 250-260 milyard xərcləyən ölkə kimi birinci yerdə qərar tutmaqla ABŞ-ın özünü bir neçə dəfə üstələyir. Bütün bunlar Çinə ildə 60 milyondan artıq turisti qəbul etməyə qətiyyən mane olmur. Qədim Böyük Çin səddi, Şanxay, Pekin əcnəbiləri valeh edən məkanlardır. İtaliya antik mədəniyyəti, saysız tarixi abidələri ilə məşhur olsa da, bu siyahıda 58,3 milyon turistlə beşinci yerdədir. Meksika 39,3, Böyük Britaniya 37,7, Türkiyə 37,6, Almaniya 37,5, Tailand 35,4 milyon turistlə ikinci beşlikdə qərar tutublar.

Bu statistik rəqəmlər onu deməyə əsas verir ki, turizm bir sıra ölkələr üçün iqtisadiyyatın ən vacib sahəsi kimi böyük gəlir mənbəyidir. Biz də öz ölkəmizi, mədəniyyətimizi, tariximizi elə öyrənməli, elə sevməli və onu elə təqdim etməyi bacarmalıyıq ki, əcnəbi üçün eşitdikləri, gördükləri əfsanəyə bərabər olsun.

Eyni zamanda onu da düşünməliyik ki, qiymətlərimiz də əcnəbi turistlər üçün qonaqpərvərliyimizə müvafiq olsun. Çünki turistlərin hamısı Bil Qeyts, ya da Cek Ma kimi milyarder deyil. Onların böyük bir qismi təqaüdə çıxan insanlardır və onlar qalan həyatlarını təəssüratlarla zənginləşdirmək istəyənlərdir. Orta səviyyəli bütün turistlər üçün əsas amil qiymətlərdir. Ona görə də qiymətlər yüksək olarsa, onlar başqa ölkələri seçəcək, necə ki bu gün Gürcüstanı milyonlarla turist seçir. Hətta yeni ili qeyd etmək istəyən ölkə vətəndaşları Bakı restoranlarının qiymətləri ilə Tbilisi müqayisə edirlər və Yeni il bayramını Gürcüstanda keçirməyə qərar verirlər. Çünki Tbilisin qiymətləri daha münasibdir. Bizdə isə çox qazanmaq eşqinə düşənlər azdan da olacaqlar. Görünür Bakıda qiymət məsələləri də elə həllini tapmalıdır ki, nə əcnəbi buraya gəlmək fikrindən vaz keçsin, nə də ölkə vətəndaşı bayramlarını xaricdə qeyd etsin.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Hər sahədə uğur var

Əvvəli 1-ci səh.

Təsərrüfat sahibləri daha məhsuldar üzüm sortlarının əkininə üstünlük vermişlər. Həyata keçirilən məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, təkcə bu il bağbanlar 7 min 375 ton məhsul yığmışlar ki, bu da ötən illə müqayisədə 1094 ton çoxdur. Bu, son rəqəm deyil. Bağlarda məhsul yığımı davam edir.

Ənənəvi sahələrdən olan baramaçılığın inkişafina da diqqət artırılmışdır. 2016-cı ildə rayon üzrə 1 ton 560 kiloqram, 2017-ci ildə 6 ton 870 kiloqram barama təhvil verən kümçülər cari ildə bu rəqəmi 9 ton 781 kiloqrama çatdırmışlar. Baramaçılığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, növbəti illərdə Tovuzda daha çox barama istehsal olunacaq.

İqtisadi cəhətdən səmərəli olan tütünçülük də ildən-ilə inkişaf etdirilir. Bu il 50 hektar sahədə tütün əkən fermerlər bu işə 200 rayon sakinini cəlb etmişlər. Artıq yarpaq dərimi başa çatmaq üzrədir. Yığılan tütün qurudulduqdan sonra tədarük məntəqələrinə göndərilir.

Cari ilin ötən dövrü ərzində heyvandarların da uğurları çox olub. 6 min 478 ton ət, 30 min 24 ton süd, 15 milyon 280 min yumurta istehsal edilmişdir ki, bu da keçən ilin müvafiq dövründəkindən çoxdur. Heyvandarlıq məhsulları istehsalının artırılması istiqamətində başlanan işlər davam etdirilir. Belə ki, heyvandarlıq istiqamətli Aqroparkın tikintisi başa çatmaq üzrədir. Aqropark istifadəyə verildikdən sonra burada 100 nəfər işlə təmin olunacaq.

Məlum olduğu kimi, bol su, bol məhsul deməkdir. Odur ki, əkin sahələrinin suvarma suyu ilə təminatı






daim diqqətdə saxlanılır. Hazırda "Ağdağ" adlanan əraziyə və Yuxarı Öysüzlü kəndinin əkin sahələrinə suyun verilməsi üçün ikinci pillə nasos stansiyasında quraşdırma işləri davam etdirilir. Tovuzçay su anbarı üzərində nasos stansiyasının quraşdırılması isə başa çatdırılmışdır. Bundan başqa, qazılmaqda olan 12 subartezian quyusunda son tamamlama işləri görülür.

İqtisadiyyata özəl sərmayənin cəlb olunması da əsas hədəflərdəndir. Göstərilən diqqət və qayğının nəticəsində cari ilin ötən dövründə rayon iqtisadiyyatına 32 milyon 523 min manat investisiya qoyulmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövründəkindən iki dəfə çoxdur. İnvestisiyaların 11 milyon 701 min manatı qeyri-dövlət sektoruna yatırılmışdır.

Rayonun yol infrastrukturunda başlanan yenilənmə sakinlərin rahatlığını təmin etməklə yanaşı, kənd və qəsəbələrin iqtisadiyyatına müsbət təsir göstərmişdir. Ölkə rəhbərinin müvafiq sərəncamı ilə 10 mindən çox əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Əsrik-Cırdaxan-Kirən-Saladınlı kənd avtomobil yolunun tikintisi davam etdirilir. Artıq yolun 20 kilometrədək hissəsinə asfalt örtük salınmışdır. Həmin layihə çərçivəsində 4,5 kilometr uzunluğunda Molla Ayrım-Yanıqlı və 8 kilometr uzunluğunda Baqqallı-Saladınlı-Çataq kəndlərarası yolların hamarlanmasına, qum-çınqıl örtüyü salınmasına və təmir işlərinə başlanılmışdır.

İlin arxada qalan ayları rayonda müxtəlif ərazilərdə aparılan tikinti-abadlıq işləri ilə də yaddaqalan olmuşdur. Tovuz şəhərinin Həzi Aslanov küçəsində və Heydər Əliyev prospektində səkilərə tamet, yola beton daşlar düzülmüş, beş küçəyə asfalt salınmışdır. Qovlar şəhərinin Vağzal küçəsində səkilərə bordürlər düzülmüş, asfalt örtük salınmış, "Dostluq" parkında abadlıq işləri görülmüşdür. Rayonda çoxmənzilli binaların təmiri davam etdirilmişdir.

Tikinti-quruculuq işləri çərçivəsində rayonun ümumtəhsil müəssisələrinin də yenilənməsi istiqamətində xeyli iş görülmüşdür. Atbulaq kənd orta məktəbinin yeni binası istifadəyə verilmişdir. Hazırda Qoşa, Qayadibi, Sarıtala, Hacıhəsənli, Qaralar və Şamlıq kəndlərində modul tipli məktəblər quraşdırılır. Qovlar şəhər internat məktəbində aparılan əsaslı təmir işləri yekunlaşmaq üzrədir. Qovlar şəhərindəki 2 saylı körpələr evi-uşaq bağçasının tikintisi aparılır. Alakol kəndində 760 yerlik yeni məktəb binasının inşasına başlanılmışdır. Tarix-diyarşünaslıq və Bayraq muzeylərinin tikintisində isə son tamamlama işləri görülür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Yeni nəşrlər

# Dünya şöhrətli bəstəkar




Bu günlərdə "Firəngiz Əlizadə - dünya şöhrətli bəstəkarımız" adlı yeni kitab oxuculara təqdim olundu. Kitabda Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, "Şöhrət" və "Şərəf" ordenli, UNESCO-nun "Sülh artisti" kimi dünya miqyaslı mötəbər mükafatın sahibi Firəngiz Əlizadənin yaradıcılığının son 10 ili əhatə olunub. Həmçinin nəşrdə dünyanın ən məşhur musiqi xadimlərinin Firəngiz Əlizadə haqqında xoş sözləri, onun iştirak etdiyi tədbirlər, beynəlxalq konfranslar, müsabiqələr barədə ətraflı məlumatlar, fotoşəkillər yer alıb. "Vətənoğlu" çap evində işıq üzü görən yeni kitabın müəllifi tanınmış musiqişünas, sənətşünaslıq doktoru, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, əməkdar incəsənət xadimi Həcər Babayevadır.

Kitabda görkəmli bəstəkar müasir Azərbaycan musiqi mədəniyyətinin dünya miqyasında ən tanınmış simalarından biri kimi təqdim olunur. F.Əlizadənin əsərlərinin xarici ölkələrdə ən böyük konsert və teatr səhnələrində, beynəlxalq festivallarda adlı-sanlı ifaçılar tərəfindən səsləndirildiyi, onun musiqisinin hər zaman böyük rəğbətlə qarşılandığı, geniş beynəlxalq arenada şöhrət qazandığı qeyd edilir. Müəllif onu da bildirir ki, F.Əlizadə bir bəstəkar, pianoçu, dirijor, ictimai xadim kimi beynəlxalq aləmdə böyük nüfuza malikdir. Pianoçu kimi XX əsr xarici ölkə bəstəkarlarının müasir əsərlərinin ölkəmizdə tanıdılmasında mühüm rol oynamaqla yanaşı, o, bir çox Azərbaycan bəstəkarlarının əsərlərinin ilk ifaçısıdır. Müəllif F.Əlizadənin öz əsərlərinin təqdimatında da həm pianoçu, həm də dirijor kimi çıxış etdiyini diqqətə çatdırır, onun öz yaradıcılığı ilə milli mədəniyyətimizi Azərbaycanın hüdudlarından kənarda da parlaq şəkildə təmsil etdiyini vurğulayır. Oxuculara məlumat verilir ki, əsərləri bir çox xarici ölkələrdə ifa olunmaqla həmin ölkələrin "composer in residence" (ölkənin rəsmi bəstəkarı) fəxri tituluna layiq görülən F.Əlizadə müxtəlif janrlarda bir sıra musiqi əsərlərinin - "İntizar", "Sənin adın Dənizdir", "Ağ atlı oğlan" operalarının, "Boş beşik" və "Stadt-Graniza" baletlərinin, "Habilsayağı", "Muğamsayağı", "Oazis", "Dərviş", "Abşeron" kimi əsərlərin müəllifidir. Həmçinin F.Əlizadə müxtəlif ifaçılıq tərkibi üçün instrumental əsərlərin, "Silk road" konserti, "Mərsiyə" violonçel və simfonik orkestr üçün konsert, böyük simfonik orkestr üçün "İthaf" və digər əsərlərin yaradıcısıdır.

Bu günlərdə "Firəngiz Əlizadə - dünya şöhrətli bəstəkarımız"ın Bakı Kitab Mərkəzində keçirilən təqdimat mərasimində çıxış edən müəllif kitabın faktlar əsasında tərtib edildiyini, Firəngiz Əlizadənin 2007-2017-ci illəri əhatə edən yaradıcılığı, fəaliyyəti və gördüyü digər işlərin işıqlandırıldığını vurğuladı. H.Babayeva qeyd etdi ki, kitabda Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar, akademik Teymur Kərimli, eləcə də Azərbaycanın tanınmış musiqişünasları - Bakı Musiqi Akademiyasının professorları, əməkdar incəsənət xadimləri Zemfira Qafarova, İmruz Əfəndiyeva, həmçinin Kamilə Dadaşzadə, Cəmilə Həsənova və başqalarının Firəngiz xanımın yaradıcılığından bəhs edən məqalələri, o cümlədən KİV-də yer alan müsahibələri verilib.

H.Babayeva diqqətə çatdırdı ki, F.Əlizadə respublikanın musiqi-ictimai həyatında önəmli rolu olan görkəmli musiqi xadimidir. Onun Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən I, II və III "Muğam aləmi" Beynəlxalq Musiqi festivallarının, Azərbaycan Bəstəkarlar İttifaqının layihəsi əsasında Şəkidə və Bakıda keçirilən I, II, III, IV, V, VI və VII "İpək yolu" Beynəlxalq Musiqi festivallarının bədii rəhbəri, "Üzeyir dünyası" layihəsinin baş redaktoru kimi səmərəli fəaliyyəti var.

Təqdimat mərasimində çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar belə bir nəşrin ərsəyə gəlməsini yüksək dəyərləndirdi. O, F.Əlizadənin Azərbaycan musiqi mədəniyyətinin formalaşmasında böyük xidmətləri olduğunu diqqətə çatdırdı: "Firəngiz Əlizadə iki dövrün - sovet və müstəqillik dövrünün bəstəkarıdır. Onun yaradıcılığı hər zaman ölkəmizin musiqi mədəniyyətinin formalaşmasına, inkişafına böyük təsir edib, bundan sonra da təsir edəcək".

Tədbirdə əməkdar incəsənət xadimləri Zemfira Səfərova, Cəmilə Həsənova və başqaları çıxış edərək kitabın əhəmiyyətindən, görkəmli bəstəkarın sənət fəaliyyətindən söz açdılar.

Sonda beynəlxalq müsabiqələr laureatı Ceyla Seyidova Səidə Tağızadənin (piano) müşayiəti ilə F.Əlizadənin "İmpuls" əsərini ifa etdi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

5 dekabr Beynəlxalq Könüllülər Günüdür

# Operativlik və xeyirxahlıq missiyası

Əvvəli 1-ci səh.

Dünya tarixində müasir anlamda könüllü fəaliyyət anlayışına ilk dəfə XVII əsrdə Fransa ordusunda rast gəlinir. Bu anlayış könüllü hərbçi olmaq istəyən fransızların qeydə alınmasından sonra meydana çıxıb. Bu dövrdə Avropada şəxsi istəyi ilə hərbi xidmətə gedənləri "volantaire" adlandırırdılar. Latın mənşəli olan "volantire" Azərbaycan dilində "könüllü" deməkdir.

O dövrdə bu söz yalnız hərbi konteksdə istifadə olunurdu. XX əsrdən etibarən isə (I Dünya Müharibəsindən sonra) könüllü sözü sosial fenomen kimi formalaşmağa başladı. 1881-ci ildə isə ABŞ-da vətəndaş müharibəsi zamanı qadınların könüllü olaraq tibb bacısı kimi fəaliyyət göstərməsi minlərlə könüllünü ətrafında birləşdirən Amerika Qırmızı Xaç Təşkilatının yaranmasına səbəb oldu.

Könüllülük - cəmiyyətdə sosial, mədəni, iqtisadi, ekoloji problemlərin həllinə yönəlmiş və gəlir əldə etmək məqsədi daşımayan ictimai faydalı fəaliyyətdir. Könüllü fəaliyyət əhalinin həssas qruplarından olan insanlara (əlillər, qocalar, kimsəsiz uşaqlar və s.) göstərilən fiziki və mənəvi yardım, cəmiyyətdə maarifləndirmə işinin aparılması, vətəndaş fəallığının artırılması, sağlam həyat tərzinin təbliğ edilməsi, ətraf mühitin qorunması və s. məqsədlə həyata keçirilən layihə və tədbirlərdə (aksiya, kampaniyalar və s.) göstərilən təmənnasız sosial xidmətdir. Könüllü fəaliyyət, bu fəaliyyəti həyata keçirən könüllülərin iştirakı ilə hökumət (dövlət büdcəsindən maliyyələşdirilən dövlət orqanları) və ya qeyri-hökumət təşkilatları tərəfindən təşkil edilir.

## "ASAN Könüllülük" hərəkatı

Bu gün dünyada ictimai və cəmiyyət maraqları naminə fəaliyyət göstərən insanların sayı on milyonlarladır. Könüllü olmaq istəyi və ehtiyacı gənc insanlarda daha çox nəzərə çarpır. Könüllülük hadisəsinə istər Azərbaycan xalqının tarixində, istərsə də adət-ənənələrində tez-tez rast gəlirik. Könüllülük hərəkatının bariz nümunələrindən biri də "ASAN" könüllülərdir.

Prezident İlham Əliyev 29 dekabr 2012-ci ildə Bakıda 1 saylı "ASAN xidmət" mərkəzinin açılışı zamanı könüllülərlə görüşdə onların bu hərəkatdakı rolunu xüsusi vurğulamışdı. "ASAN Könüllülük" hərəkatı və onun bir parçası olan "ASAN Könüllülük" məktəbinin 2012-ci ilin sonlarından etibarən fəaliyyət göstərdiyini vurğulayan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnsan resursları və təlim şöbəsinin müdir müavini, "ASAN Könüllülük" məktəbinin rəhbəri Cahangir Hacıyev bildirir ki, artıq könüllü fəaliyyətinin istər vətəndaşlar, istərsə də gənclərin özü üçün böyük fayda verdiyinə şahid olmaq mümkündür.






Cahangir Hacıyevin sözlərinə görə, Bakıda ilk "ASAN xidmət" mərkəzi açıldığı gündən gənclərin də könüllü kimi fəaliyyətinə şərait yaranıb: "Düşündük ki, gənclərin bu işə cəlbi ilə onlar bizə həm dəstək olarlar, həm də müasir innovativ tələblər əsasında həyata keçirilən yeni idarəetmə modelini öyrənərək gələcək iş təcrübələrində tətbiq edərlər. Gənclər bütün proseslərdə aktiv iştirakçı kimi dövlət qulluqçuları ilə birgə çalışaraq həm bilik-bacarıqlarını artırdılar, həm də bu prosesə dəstək verməyə başladılar. Xatırladım ki, Sabirabadda 16 dekabr 2014-cü il tarixdə "ASAN" könüllülərinin I Ümumrespublika Forumunda Prezident İlham Əliyev Azərbaycanda çox müasir, dövlətə, vətənə bağlı olan gənc nəslin yetişdiyini qeyd edərək "ASAN" könüllülərinin fəaliyyətinin xüsusi əhəmiyyət daşıdığını vurğuladı".







## Müasir dövrün tələblərinə cavab verən gənclik

"ASAN Könüllülük" məktəbinin 18 mindən artıq məzunu olduğunu söyləyən Cahangir Hacıyev deyir ki, gün ərzində minə yaxın könüllü müxtəlif "ASAN xidmət" mərkəzlərində, səyyar xidmətdə, "ASAN Kommunal" mərkəzlərində vətəndaşlara xidmət edirlər. Məktəbin şüarı belədir - "Könüllülük və təcrübə bizdən başlayır". Dövlət başçısının dediyi kimi, sistemli könüllülük fəaliyyəti məhz "ASAN"dan başlayıb.

Həm paytaxt, həm də bölgələrdə çalışan könüllülərin fəaliyyətindən söz açan Cahangir Hacıyevin sözlərinə görə, Bakı, Sumqayıt və Gəncə şəhərləri üzrə gənclər üç növbəli iş qrafiki üzrə işlədikləri üçün onların tədris prosesinə heç bir maneə yaranmır. Yəni hansı iş saatı onlara uyğundursa, onu seçirlər.

Sevindirici haldır ki, bölgələrimizdə də gənclər bu fəaliyyətə cəlb olunurlar. Ancaq onlar iki növbəli iş qrafiki ilə çalışırlar: "Könüllü olaraq çalışmaq istəyənlər xüsusi komissiya tərəfindən müsabiqə əsasında seçilir. Təxminən bu günə qədər 70 minə yaxın şəxs könüllü olmaq üçün müraciət edib. "ASAN" könüllüləri iki ay ərzində gündə üç saat olmaq şərtilə fəaliyyət göstərirlər. Bundan başqa, "ASAN Könüllülər" təşkilatı da var ki, "ASAN" könüllüsü olmuş gənclər həmin təşkilatın tərkibində birləşir və fəaliyyətlərini o cür davam etdirirlər. Təşkilat tərəfindən yüzlərlə layihələr həyata keçirilir ki, bu layihələrin hamısı da gənclərin fərdi inkişafına və təcrübə qazanmasına, məsuliyyətli vətəndaş kimi yetişməsinə köklənib".

## 70-80 yaşlı könüllülər

Cahangir Hacıyev deyir ki, bu ilin sentyabr ayından başlayaraq "ASAN xidmət" mərkəzinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə "Könüllülüyün yaşı yoxdur" şüarı altında həyata keçirdiyi pilot layihə çərçivəsində yaşlı nəslin könüllü olaraq fəaliyyətinə də şərait yaradılıb: "Artıq bu layihə çərçivəsində 11 məzunumuz da var. Aralarında 70-80 yaşlarında olan şəxslər də var idi. Çox həvəsli idilər. Bu layihənin əsas məqsədi nəsillərarası təcrübənin bölüşməsi, eyni zamanda ahıl insanların asudə vaxtının səmərəli təşkilinə və məşğulluğunun artırılmasına xidmət edir".

Könüllü fəaliyyətinin cəmiyyət üçün faydalı olduğunu və insanlığın inkişafına xidmət etdiyini vurğulayan Cahangir Hacıyev hər kəsi könüllü olmağa dəvət edir: "Biz də daim könüllü məktəbinin fəaliyyətini genişləndirməyi düşünürük. "ASAN" könüllülərinin işlə təminatına dəstək olmaq üçün karyera mərkəzi yaradılıb. Bu günə qədər min nəfər "ASAN" könüllüsü müxtəlif dövlət, özəl qurumlarda işlə təmin olunublar. 100-ə yaxın gənc isə "ASAN xidmət" mərkəzlərində işə götürülüb. Fəaliyyətimizi 2019-cu ildən yeni sistem üzərində həyata keçirməyi düşünürük".

## "Səbirli davranmağı öyrənmişik"

1 saylı "ASAN xidmət" mərkəzində könüllü olaraq vətəndaşlara xidmət edən gənclər könüllülük fəaliyyəti nəticəsində əldə etdikləri təcrübə, bilik və bacarıqların gələcəkdə onların peşəkar kimi formalaşmalarına kömək edəcəyini deyirlər.

21 yaşlı Nicat Ağayev Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. Dediyinə görə, insanlarla ünsiyyətdə olmaq və iş həyatına öyrəşmək üçün könüllü olaraq fəaliyyət göstərməyi qərara alıb. Seval Musayeva da könüllü kimi təcrübə toplamaqla gələcək karyera həyatına doğru bir addım atdığını düşünür. Deyir ki, könüllü olmaq dünyagörüşünün artırılması üçün daha yaxşıdır. Bir çox şeylər öyrənib.

20 yaşlı Nərmin Qocayeva isə burada könüllü olaraq işləməklə artıq səbirli olmağı da öyrənib. Hər gün fərqli əhvalda, xarakterdə olan insanlarla qarşılaşdıqlarını deyən Nərminin sözlərinə görə, artıq insanlarla davranışlarına diqqət etməyi, səbirli davranmağı və hisslərini cilovlamağı öyrənib.

Kənan Əhmədlinin 18 yaşı var. Bakı Dövlət Universitetinin tələbəsidir və ixtisasına uyğun daha çox təcrübə əldə etmək üçün boş vaxtını burada könüllü olaraq işləməklə keçirir.

Gün ərzində müxtəlif iş proseslərinə nəzarət edən, sorğular keçirən, ərizələrin yazılmasına kömək göstərən və vətəndaşlara xidmət edən könüllülərimiz onları razı salmağa çalışırlar.

Kollektiv iş prinsiplərini öyrənməyə çalışdığını deyən Şəms Səlimova İqtisad Universitetinin tələbəsidir. 19 yaşlı Şəms bu sahədə peşəkarlığa yiyələnməklə gələcək karyerası üçün yaxşı şans yaratmaq istəyir. Düşünür ki, "ASAN xidmət" onun gələcək planlarının reallaşmasında böyük rol oynayacaq.

İnsan qarşısına məqsəd qoyarsa, qarşılaşdığı hər bir çətinliyin öhdəsindən gələ bilər deyən Sənan Məmmədbəyli vətəndaşlarla ünsiyyətdə olmağa daha çox maraqlıdır. Burada əldə etdikləri təcrübənin onlar üçün çox əhəmiyyətli olacağı fikrindədir: "Universiteti bitirdikdən sonra ilk olaraq iş axtarmağa başlayacağıq və hər yerdə də ilk iş təcrübəsi olur. Burada könüllü olaraq həm vətəndaşlara xidmət edirik, həm də təcrübə toplayırıq. Bu da bizim üçün motivasiyadır".

Könüllülərimiz bütün gənclərə boş zamanlarını yaxşı dəyərləndirməyi, təcrübə proqramlarına qoşulmağı təklif edir.

## "ASAN" - könüllülərin inkişaf mərkəzidir

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun müdiri Sahil Məmmədli deyir ki, son 6 il ərzində 18 mindən çox gəncin "ASAN xidmət" mərkəzlərində könüllü kimi çalışması, öz sosial məsuliyyətini dərk etməsi, cəmiyyətə müsbət mesaj ötürür.

Sahil Məmmədlinin sözlərinə görə, "ASAN xidmət" könüllülərin inkişaf mərkəzidir: "Könüllü olmaq istəyən 16-26 yaşlarında şəxslər müraciət edə bilərlər. Ancaq bəzi istisnalar da ola bilər. Gördüyünüz kimi, könüllü olaraq çalışan gənclərin böyük əksəriyyəti müxtəlif yaş qrupundan olan, orta, ali və orta ixtisas təhsilli gənclərdir. "ASAN xidmət"in operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik prinsipləri bu yöndə qazanılan uğurların səbəbidir. "ASAN" peşə layihəsi çərçivəsində peşə təhsil müəssisələrində oxuyan gənclərin çoxu "ASAN xidmət" mərkəzlərində könüllü olmağa can atır. Bütün gəncləri könüllülük ailəsinin üzvü olmağa çağırırıq".

## "ASAN" könüllülərə nə qazandırır?

"ASAN"ın könüllülərə kollektivdə işləmək bacarığını aşıladığını, işgüzar ünsiyyəti izah etdiyini, praktik təcrübə qazandırdığını deyən Sahil Məmmədlinin fikrincə, gənclər həm də müştəri məmnunluğu ilə bağlı praktiki və nəzəri biliklərə yiyələnirlər.

Sahil Məmmədli deyir ki, "ASAN" könüllülük fəaliyyətinin inkişafı üçün könüllülərlə iş sektoru yaradılıb. Bu da onu göstərir ki, dövlət könüllülərin inkişafına, onların potensialından səmərəli istifadə etmək üçün təşkilatlanmağa maraqlıdır. Bu sektor könüllülərə məsuliyyətli vətəndaşlıq aşılayır, onların fərdi və peşəkar inkişafı üçün zəmin yaradır: "Dayanıqlı inkişaf məqsədləri ilə sintez olunan layihələr həyata keçiririk ki, bu layihələrin mütləq əksəriyyəti gənclərin cəmiyyətə qarşı öz məsuliyyətini dərk etməsi kontekstindədir. Gənclərin fərdi və peşəkar inkişafı ilə bağlı təlimlər, rəsmi şəxslərlə praktiki görüşlər keçirilir. "ASAN" könüllülərin təhsil və fərdi inkişafına dair proqramımız mövcuddur ki, bu proqram çərçivəsində gənclərin gələcək ixtisas istiqamətləri üzrə ilkin biliklərə yiyələnməsi məqsədilə müxtəlif qurumlarda çalışan peşəkar mütəxəssislərlə qısa görüşləri təşkil edilir".

Sahil Məmmədli bildirir ki, könüllülər üçün müxtəlif təlim modulları da keçirilir: "Təlimlərdə onlara "ASAN xidmət"in fəaliyyət istiqaməti, prinsipləri, ünsiyyət texnikaları, şəxsiyyət tipləri, onlarla davranmağın yolları öyrədilir. Həmin gənclərə əlavə olaraq sosial məsuliyyət aşılayan təlimlər də keçirilir. Karyera sahəsində də müxtəlif təlimlərimiz olur. İki ay könüllü olaraq işlədikdən sonra həmin gənclərə xasiyyətnamə və sertifikat verilir".

## Könüllülük fəaliyyətinə fiziki məhdudiyyətli gənclər də cəlb edilir

Artıq ötən ildən fiziki məhdudiyyətli gənclərlə bağlı da layihəyə başladıqlarını deyən Sahil Məmmədli bildirir ki, bu gün həssas qrupa daxil olan gənclərin də inkişafı, onların cəmiyyətə inteqrasiyası "ASAN"ın vacib fəaliyyət istiqamətlərindən biridir.

Fiziki məhdudiyyətin əslində məhdudiyyətsizlik olduğunu diqqətə çatdırmaq və bu insanların cəmiyyətə inteqrasiyasını təmin etmək üçün "ASAN" xüsusi bir layihəyə başlamaq qərarına gəlib: "Onlar da cəmiyyətin bir parçasıdır. "ASAN" bu istiqamətdə məsuliyyətini dərk etdi və bu layihə əsasında onların bacarıqlarının artırılması ilə əmək bazarında yer tutmalarına nail oluruq. Artıq bütün mərkəzlərimizdə onlarla bu cür könüllülər fəaliyyət göstərir. Fərdi müraciətlər də qəbul edirik".

Sonda biz də bütün könüllüləri bu gün münasibətilə təbrik edir və digər gəncləri də könüllü olaraq ölkənin gələcək inkişafında iştiraklarını və məsuliyyətlərini artırmağa çağırırıq.

Prezident İlham Əliyevin söylədiyi kimi, təkcə "ASAN xidmət" sahəsində deyil, bütün başqa sahələrdə də könüllülər institutunun daha da sürətlə formalaşacağına əminik. Çünki Azərbaycanda hazırda mövcud olan ictimai-siyasi vəziyyət, gözəl ab-hava belə təşəbbüslərin irəli sürülməsinə imkan yaradır.

***Fərizə ƏHMƏDOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Azərbaycan mədəni irsinin UNESCO-da növbəti zəfəri

*Əvvəli 1-ci səh.*

Mədəniyyət və Xarici İşlər nazirliklərinin hər iki bəyanatında həmçinin xüsusi diqqətə çatdırıldı ki, UNESCO ilə əməkdaşlığın inkişafında və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində müstəsna rolu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın dəstəyi ilə sözügedən iki nominasiya faylı ilə yanaşı, ötən illərdə qeyri-maddi mədəni irsimizin nümunələri - kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına, çövkən - ənənəvi Qarabağ atüstü oyunu isə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

## Erməni nümayəndə heyətinin uğursuzluqları

Hökumətlərarası Komitənin 13-cü sessiyasında 2013-cü ildə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Azərbaycanın "Çövkən - ənənəvi Qarabağ atüstü oyun ənənələri"nə dair beşillik hesabat da qəbul olundu. Hesabatda çövkən atüstü oyun ənənələrinin inkişafı ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlər, eyni zamanda, Ermənistan tərəfindən Azərbaycanın Qarabağ regionunun işğalı nəticəsində bu oyun ənənələrinin həyata keçirilməsinin mümkünsüzlüyü əks olunub. Sənəddə Qarabağdan - tarixi yurdundan zorla qovulmuş azərbaycanlı əhalinin, müharibənin və təcavüzün acı nəticələrinə baxmayaraq, çövkən oyununu yaşatmağa çalışdıqları və bu istiqamətdə dövlətin icmaları dəstəklədiyi diqqətə çatdırılıb.

Qeyd edək ki, bədnam qonşularımızın mədəni irsimizi mənimsəmək və bunu UNESCO səviyyəsində təqdim etmək cəhdi hər dəfə uğursuzluqla nəticələnir. Bu dəfə də Azərbaycana qarşı əsassız çıxış edən Ermənistan nümayəndə heyəti hesabatın geri qaytarılması tələbini irəli sürdü. Məsələ geniş müzakirə olundu. Ermənistanın qərarla bağlı təkliflərinin heç biri komitə tərəfindən dəstəklənmədi.

Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Anar Kərimov hesabatın beynəlxalq hüquq, BMT Nizamnaməsi və UNESCO-nun müvafiq konvensiyasına uyğun olaraq Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən hazırlandığını, sənəddə ölkəmizdə çövkən oyununu həyata keçirən bütün icmaların fikirlərinin və müsahibələrinin əksini tapdığını vurğuladı. Konstruktiv mövqelərinə görə komitə üzvlərinə təşəkkür edən səfir Ermənistan nümayəndəsini komitə üzvlüyündən öz siyasi məqsədləri üçün istifadə etməməyə çağırdı.

## Milli-mənəvi dəyərlərimizin təbliğı davam edir

Beləliklə, UNESCO-nun iki siyahısında - Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısında və Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında Azərbaycan xalqının zəngin mədəni irsi ilə bağlı ümumilikdə 13 nümunə yer aldı.

Qeyd edək ki, 2008-ci ildə ölkəmizin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş ilk nümunəsi Azərbaycan muğamı oldu. O vaxtdan Azərbaycan öz milli-mənəvi dəyərlərini bu nüfuzlu beynəlxalq təşkilat çərçivəsində dünyada tanıtmaq, təbliğ istiqamətində ardıcıl və məqsədyönlü işlər aparır.

Milli mənəvi sərvətlərimizin dünya miqyasında təbliğ olunmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əməyi xüsusilə təqdirəlayiqdir. Azərbaycan mədəniyyətinin, xalqımızın özünəməxsus adət-ənənələrinin göstəricisi olan milli-mənəvi dəyərlərimizin həm ölkə, həm də dünya səviyyəsində tanıtımı və təbliği yüksək səviyyədə davam edir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycan həmkarlar ittifaqlarının nümayəndə heyəti Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının IV qurultayında iştirak edir

Danimarkanın paytaxtı Kopenhagendə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) IV qurultayı keçirilir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildiriblər ki, qurultayda 132 ölkədən 1200-dən çox nümayəndə iştirak edir.

Qurultayın açılış mərasimində Danimarkanın Baş naziri Lars Lekke Rasmussen, Beynəlxalq Əmək Təşkilatının direktoru Qay Rayder, Kopenhagen şəhərinin lord-meri Frank Censen, Danimarka Həmkarlar İttifaqları Konfederasiyasının sədri Lizette Risqord, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Joao Antonio Felisio çıxış ediblər.

Dekabrın 7-dək davam edəcək qurultayda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti Səttar Möhbalıyevin rəhbərlik etdiyi həmkarlar ittifaqlarının nümayəndə heyəti də iştirak edir.

Səttar Möhbalıyev çıxış edərək Azərbaycan həmkarlar ittifaqları adından qurultay iştirakçılarını salamlayıb. AHİK sədri qeyd edib ki, BHİK-in IV qurultayı beynəlxalq həmkarlar ittifaqı hərəkatı üçün önəmli bir ərəfədə, ilk milli həmkarlar ittifaqının 150, İnsan Hüquqlarının Ümumi Bəyannaməsinin 70 illiyinin qeyd olunduğu bir vaxtda keçirilir. Bu baxımdan bizim üzərimizə əməkçi insanların sosial-əmək hüquqlarının müdafiəsi sahəsindəki işimizi daha da gücləndirmək və onu vaxtaşırı inkişaf etdirmək düşür.

"Biz bu ilin fevral ayında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayını keçirdik və konfederasiyamızın qurulmasının 25 illiyini də təntənəli şəkildə qeyd etdik. Bu tədbirlərdə BHİK-in prezidenti Joao Antonio Felisionun şəxsən iştirak etməsini Azərbaycan həmkarlar ittifaqlarına göstərilən diqqətin təzahürü kimi qiymətləndiririk və ona bir daha təşəkkür edirik", - deyə S.Möhbalıyev əlavə edib.

BHİK-in IV qurultayının əsas mövzusu "İşçilərin potensialının formalaşdırılması: Qaydaların dəyişilməsi" bizim region və respublikamız üçün də aktualdır. Azərbaycanda işçilərin sosial rifahının yüksəldilməsi, sosial müdafiəsinin təşkili sahəsində atılan addımlar bu istiqamətdə müsbət irəliləyişlərin əldə olunduğunu göstərir.

Nümayəndə heyətimizin rəhbəri qurultay iştirakçılarına məlumat verərək bildirib ki, Azərbaycanın son dövrlər əldə etdiyi nailiyyətlər hamımızı sevindirir. Ötən ilin yekunlarına görə, respublikamızda əhalinin gəlirləri 8,3 faiz, işçilərin orta aylıq əməkhaqqı isə 5,7 faiz artıb. Son 15 il ərzində ölkədə 1.900.000 yeni iş yeri yaradılıb ki, onların da əksəriyyəti daimidir. Yoxsulluq səviyyəsi 5,4, işsizlik səviyyəsi isə 5 faizə endirilib.

Respublikada iqtisadi sahədə əldə olunmuş nailiyyətlər beynəlxalq strukturlar tərəfindən də layiqincə qiymətləndirilib. Belə ki, Davos Ümumdünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə yüksəldib. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan hesabat indikatorları üzrə göstəricilərini ən çox yaxşılaşdıran dünyanın 10 ölkəsindən biri olub.

Məlumdur ki, işçiləri həmkarlar ittifaqı üzvlüyünə cəlb edən səbəblərdən biri həmkarlar ittifaqı üzvlərinin hüquqi müdafiəsidir, həmkarlar ittifaqı üzvlüyünə motivasiyanın keyfiyyəti əsasən işçinin hüquqi müdafiəsinin səviyyəsindən asılıdır. Qeyd etmək istərdim ki, BHİK-in baş katibi Şaron Barou III qurultayda növbəti dörd il ərzində üzvlərin sayının 20 milyon nəfər artırılacağının qarşıya məqsəd qoyulduğunu bildirmişdi. AHİK öz növbəsində bu şüarı dəstəkləyərək ötən dövr ərzində sıralarına 56.571 nəfər yeni üzv birləşdirməyə müvəffəq olub. Biz ölkə qanunvericiliyinin və BƏT-in konvensiyalarının verdiyi imkanlar çərçivəsində həmkarlar ittifaqlarının bütün üzvlərinin müraciətlərinə operativ reaksiya verir, həmkarlar ittifaqı üzvlərinin əmək və sosial hüquqlarının qorunması və bərpası üçün bütün imkanlardan istifadə etməyə çalışırıq.

S.Möhbalıyev deyib ki, respublikamızda "2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı" qəbul edilərkən gender və gənclər siyasətinin inkişafı, qeyri-rəsmi iqtisadiyyatla mübarizə, gənclərin məşğulluğu, üçtərəfli dialoqun təkmilləşdirilməsi məsələlərinə dair təkliflərimiz nəzərə alınıb. AHİK ölkə proqramında qarşıya qoyulmuş məqsəd və vəzifələri həyata keçirmək üçün öz konsepsiyasını qəbul edib ki, burada da inklüziv məşğulluğu genişləndirmək, iqtisadiyyatı aktivləşdirmək, ölkədə qeyri-rəsmi məşğulluğu aradan qaldırmaq tədbirlərinin həyata keçirilməsi öz əksini tapıbdır. Bu gün Azərbaycan həmkarlar ittifaqları BMT-nin "Dayanıqlı inkişafın məqsədləri" proqramında irəli sürülən vəzifələrin həyata keçirilməsi üçün özünün bütün imkanlarından istifadə etməyə çalışır. Biz bu vəzifələrin həyata keçirilməsini texniki inqilabın nailiyyətlərindən istifadə olunmasında və hökumətin qərarlarının insanların rifahının yaxşılaşdırılmasına yönəldilməsində görürük.

Gündəmdə olan digər vacib məsələ də əməyin gələcək sferasıdır. Bu gündən biz qarşılaşacağımız halları dəyərləndirməliyik. Hesab edirəm ki, gözlənilən proseslər əmək münasibətlərinin forma və xarakterinin yenidən baxılmasına gətirib çıxara bilər. Biz, həmkarlar ittifaqı olaraq, vaxtında bu məsələyə hazır olmalıyıq.

Təəssüflə deməliyəm ki, bu gün bir sıra ölkələrdə hökumətlər və biznes imperiyası böhrandan çıxmaq adı altında əmək münasibətlərinin formasını dəyişməyə və həmkarlar ittifaqlarının muzdlu işçilərin müdafiəsinin təşkilinə dair son illər ərzində əldə etdiyi uğurları tamamilə heçə endirməyə cəhd göstərirlər. Bu, hər şeydən əvvəl işsizliyin artmasına və real əməkhaqqının azalmasına, qeyri-sabit məşğulluğa və işçidə özünəinamsızlığın yaranmasına şərait yaradır.

Çıxışının sonunda S.Möhbalıyev vurğulayıb ki, BHİK və onun müvafiq strukturları bu inamsızlığın aradan qaldırılması, alternativ siyasətin işlənib hazırlanması üçün müvafiq addımlar atmalıdır. BHİK-in öz diqqətini qlobal iqtisadiyyatın əsas problemlərinə və üçtərəfli münasibətlərdə həmkarlar ittifaqlarının bərabər tərəfdaş mövqeyinin qorunub saxlanmasına yönəltməsini də vacib hesab edirəm.

BHİK dünyanın ən iri həmkarlar ittifaqı birliyi olmaqla, həmkarlar ittifaqı üzvlərinin yalnız 10 faizə qədərinin mənafeyini müdafiə edir. Hazırda BHİK-in tərkibində olmayan nəhəng həmkarlar ittifaqı birlikləri də mövcuddur. Hesab edirəm ki, BHİK qarşıya qoyulan məqsədlərə çatmaq üçün bu qüvvələri də öz ətrafında birləşdirmək istiqamətində səy göstərməlidir.

# "Regional İnkişaf" İctimai Birliyi könüllülərinin birinci ümumrespublika konfransı keçirilib

Dekabrın 4-də Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində "Regional İnkişaf" İctimai Birliyi (RİİB) könüllülərinin birinci ümumrespublika konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransdan əvvəl tədbir iştirakçıları könüllülərin əl işlərindən ibarət sərgi ilə tanış olublar. Sərgidə ölkənin müxtəlif bölgələrini təmsil edən gənclərin rəsm və tikmələri, o cümlədən qədim şəbəkə sənəti üzrə nümunələr və tullantılardan hazırlanmış əsərlər təqdim edilib. Eksponatlar arasında, eyni zamanda, RİİB-in fiziki imkanları məhdud könüllülərinin əl işləri də yer alıb.



Konfrans "Regional İnkişaf" İctimai Birliyinin könüllülük fəaliyyətinə dair videoçarxın nümayiş etdirilməsi ilə başlayıb.

Tədbirdə RİİB-in könüllüləri qazandıqları təcrübə barədə fikirlərini bölüşüb, ictimai birliyin yeni layihələrini təqdim ediblər.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə təsis olunan "Regional İnkişaf" İctimai Birliyinin əsas məqsədi ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında, vətəndaş cəmiyyəti quruculuğunda layihələr reallaşdırmaq, ictimai nəzarəti həyata keçirmək, ölkədə aparılan islahatlara, o cümlədən dövlət tərəfindən regionların inkişafına yönəlmiş tədbirlərə geniş dəstək göstərməkdir. RİİB-in nümayəndəsi Cəmil Əliyev bildirib ki, hazırda təşkilatın fəaliyyəti bütün respublika ərazisini əhatə edir və onun 9 regional mərkəzi yaradılıb. İctimai Birliyin fəaliyyətində bölgələr üzrə 500-dək könüllü iştirak edir.

Konfransda Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov gənclərin könüllülük hərəkatının formalaşması və genişləndirilməsində rolu barədə çıxış edib. Bildirib ki, Gənclər Fondu və RİİB müxtəlif layihələr çərçivəsində tərəfdaşlıq edirlər. Heydər Əliyev Fondu ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə istər respublikamızda, istərsə də beynəlxalq miqyasda həyata keçirdiyi humanitar, mədəni layihələrlə xalqımızın zəngin mədəni irsinin təbliğinə, Azərbaycan həqiqətlərinin dünyaya tanıdılmasına, ölkədə elm, təhsil və səhiyyənin inkişafına töhfələr verir. Bu mənada "Regional İnkişaf" İctimai Birliyi də regionlarda əhalinin sosial-iqtisadi problemlərinin həll olunmasında, onların bilik və bacarıqlarının artırılmasında, potensialının reallaşdırılmasında çoxsaylı layihələr həyata keçirib.

Qeyd olunub ki, könüllülük sərbəst seçim əsasında ictimai və cəmiyyət maraqları naminə təmənnasız fəaliyyətə xidmət edir. Bu fəaliyyətin hədəfi digər şəxslərin, icma və təşkilatların həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilib. Bununla belə, könüllülük fəaliyyəti müddətində könüllülər özləri də müəyyən bilik, təcrübə və bacarıq əldə edirlər. Bu sahədə fəaliyyəti nizamlayan qanunun qəbul edilməsindən ötən doqquz il ərzində ölkəmizdə bir sıra mötəbər beynəlxalq tədbirlərin, idman yarışlarının uğurla keçirilməsində könüllülərin böyük xidməti olub.

Sonra RİİB-in fəaliyyətində aktiv iştirak edən könüllülər sertifikatlarla təltif olunublar.

Tədbirin sonunda "Regional İnkişaf" İctimai Birliyi könüllülərinin birinci ümumrespublika konfransı iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti oxunub. Müraciətdə qeyd olunur ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2016-cı ilin fevralında təsis edilən "Regional İnkişaf" İctimai Birliyinin əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli layihələr reallaşdırmaq, dövlət tərəfindən aparılan islahatlar, o cümlədən regionların inkişafı üzrə həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərməkdir. Gənclərin intellektual və yaradıcılıq potensialının üzə çıxarılması və vətən naminə səfərbər edilməsində könüllü fəaliyyətin rolu danılmazdır. "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri bundan sonra da öz fəaliyyətində humanizm, insanseverlik, xalqa və dövlətə xidmət kimi dəyərlərə sadiq qalaraq regionların sosial-iqtisadi inkişafı, Azərbaycanın tərəqqisi naminə böyük əzmlə çalışacaqlar.

# 220 min ton həddi keçildi

Yaşlı və orta nəslin yaddaşında qalmış olar: pambıq istehsalına bəlkə də lazım olandan da artıq dəyər verən sovetlər vaxtı məhsul yığımı sentyabrda başlayıb uzaqbaşı noyabrın ortalarınadək davam edərdi. O vaxt pambıq yığımına cəlb edilən məktəblilər və tələbələr də dərslərə noyabr bayramından (7 noyabr böyük oktyabr sosialist inqilabının ildönümü bütün SSRİ-də ən böyük bayram kimi təntənəli qeyd olunurdu) sonra başlayardılar.

İndi isə dekabrın 5-i olmasına baxmayaraq, pambıq yığımı davam edir. Bu günlər pambıq əkən rayonlardan birinin kənd təsərrüfatı mütəxəssisi ilə söhbət edərkən sözügedən məsələnin səbəbini soruşduq. Cavabı çox sadə oldu. Dedi ki, sahələrdə pambıq hələ çoxdur. Hətta o qədər ki, rayonda sahələr var, heç birinci yığım başa çatmayıb. Həmsöhbətimizin sözlərinə görə, yığımın belə gec yekunlaşmasının səbəbləri müxtəlifdir: pambığın növündən başlamış çiyid səpininin gecikməsinədək. Sonda isə sözü bu oldu: Dövlət xüsusən cari mövsüm pambığa yaxşı pul verir və bu üzdən inanmıram ki, tarlalarda yığılmayan məhsul qalsın.

Bu o demək idi ki, Dövlət Statistika Komitəsinin pambıq tədarükünə dair dekabrın 4-nə olan məlumatı son deyil.

Həmin məlumatda bildirilir ki, göstərilən tarixədək ölkə üzrə 221,2 min tondan çox pambıq tədarük olunmuşdur. Bu, ötən ilin eyni dövründə toplanmış məhsuldan 25 min ton, yaxud 12,8 faiz çoxdur. Həftə ərzində yığılmış pambığın həcmi isə 4,8 min tondan çox olmuşdur.

**04.12.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 04 dekabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **221284,57** | **196258,03** | **112,8%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 22301,99 | 19302,16 | 115,5% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 5357,27 | 5947,27 | 90,1% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3688,00 | 3490,43 | 105,7% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1830,33 | 2418,60 | 75,7% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 20753,71 | 15019,27 | 138,2% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 24122,90 | 21142,47 | 114,1% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 21025,25 | 23964,97 | 87,7% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 1166,00 | 973,10 | 119,8% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 1977,20 | 1914,80 | 103,3% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 8622,20 | 6456,20 | 133,5% |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 1129,59 | 832,81 | 135,6% |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 17474,24 | 13048,96 | 133,9% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 6249,19 | 4528,11 | 138,0% |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 9806,34 | 8658,07 | 113,3% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 29228,81 | 25314,90 | 115,5% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 16536,21 | 17393,33 | 95,1% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 9956,31 | 8755,40 | 113,7% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 913,17 | 44,66 | 20,4 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 7773,59 | 8028,57 | 96,8% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1555,93 | 1965,80 | 79,1% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 5128,85 | 3114,95 | 1,6 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 4687,49 | 3943,20 | 118,9% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

Rayonlara gəldikdə, toplanmış məhsulun həcminə görə Saatlı 29,7 min, Bərdə 24,1 min, Ağcabədi 22,2 min, Biləsuvar 21 min, Beyləqan 20,7 min, İmişli 17,4 min, Sabirabad 16,5 min tonla irəlidədirlər. Onların ardınca 9,9 min tonla Salyan, 9,8 min tonla Neftçala, 8,6 min tonla Goranboy, 7,7 min tonla Tərtər, 6,2 min tonla Kürdəmir, 5,3 min tonla Ağdam, 5,1 min tonla Yevlax rayonları gəlir. Güman etmirik ki, mövsümün sonunadək tədarükün həcminə görə rayonların sıralanmasında hansısa ciddi yerdəyişmələr olsun. Bunun bir səbəbi də odur ki, bütün rayonlar pambıqçılığın dirçəldilməsi üçün ölkədə yaradılmış şəraitdən maksimim istifadə edərək üzərlərinə düşən vəzifənin öhdəsindən yüksək səviyyədə gəlirlər.


# "Azərsu" ASC yuyucu və təmizləyici vasitələrin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs Hikmət Qasımovdan, 431-47-67/2249) ala bilərlər.

**Tender 1 (bir) LOT üzrə keçirilir.**
**İştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **17 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **24 yanvar 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **25 yanvar 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



# "Bakı Metropoliteni" QSC "Xocasən" elektrik deposu sahəsində "Biləcəri-Heybət" mənzilindən "Xocasən" elektrik deposuna qədər tikintisi nəzərdə tutulan dəmir yolu ilə kəsişən qaz kəmərinin köçürülməsi işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Zakir Hacıyev; telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC-nin "Xocasən" elektrik deposu sahəsində "Biləcəri-Heybət" mənzilindən "Xocasən" elektrik deposuna qədər tikintisi nəzərdə tutulan dəmir yolu ilə kəsişən qaz kəmərinin köçürülməsi işlərinin satın alınması.**

**İştirak haqqı - 150 manat.**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **21 yanvar 2019-cu il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 yanvar 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Təhsil Nazirliyi
# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

*2018-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə*

***doktoranturaya və dissertanturaya qəbul elan edir***

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | |
| | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | |
| | | | Büdcə hesabına | | Ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla | | Büdcə hesabına | | ödənişli əsaslarla | | | Büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 3309.01 | Qida məhsullarının texnologiyası | 2 | | 1 | | 1 | | | | 1 | | 1 | | | | | |
| 3313.02 | Maşınlar, avadanlıqlar və proseslər | 1 | | 1 | | | | | | 1 | | 1 | | | | | |
| 3333.01 | İstehsalın təşkili (sahələr üzrə) | 2 | | 1 | | 1 | | | | 1 | | 1 | | | | | |
| 5301.01 | Daxili fiskal siyasət və dövlət maliyyəsi | 9 | 1 | 5 | | 3 | | | | 3 | | 2 | | 1 | | | |
| 5302.01 | Ekonometriya-iqtisadi statistika | 3 | 1 | 2 | | | | | | 2 | | 2 | | | | | |
| 5303.01 | Mühasibat uçotu | 4 | 1 | 1 | | 2 | | | | 1 | | 1 | | | | | |
| 5307.01 | İqtisadi nəzəriyyə | 2 | 1 | 1 | | | | | | 1 | | 1 | | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | 13 | 2 | 7 | | 4 | | | | 4 | | 3 | | 1 | | | |
| 5310.01 | Dünya iqtisadiyyatı | 4 | | 3 | | 1 | | | | 1 | | 1 | | | | | |
| 5312.01 | Sahə iqtisadiyyatı | | | | | | | | | | | | | | 2 | 1 (LDU üçün məqsədli yer) | 1 (LDU üçün məqsədli yer) |
| 7203.01 | Ümumi fəlsəfə | | | | | | | | | 1 | | 1 | | | | | |
| | Cəmi: | 40 | 6 | 22 | | 12 | | | | 16 | | 14 | | 2 | 2 | 1 | 1 |

## Qəbul qaydaları:

1. Doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar. Elmlər doktoru proqramına sənəd verən iddiaçılardan müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan, 3 il elmi-pedaqoji iş stajı və minimum 3 beynəlxalq nüfuzlu jurnallarda məqalə dərc etdirən namizədlərə üstünlük verilir.
2. Doktorantura və ya dissertanturaya müraciət haqqında ərizə universitet rektorunun adına yazılır. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:
   - kadrların şəxsi qeydiyyat vərəqi;
   - tərcümeyi-hal;
   - 2 ədəd fotoşəkil (3x4 ölçüdə)
   - iş yerindən xasiyyətnamə;
   - iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
   - çap olunmuş elmi əsərlərin siyahısı (surətləri əlavə edilməklə) və ya seçilmiş ixtisas üzrə 20-25 səhifəlik referat;
   - ali təhsil haqqında diplomların (diplomun) və qiymət cədvəllərinin surətlərinin notarial qaydada təsdiqi (xarici ölkələrdə təhsil almış vətəndaşlar üçün təhsil haqqında sənədin tanınması haqqında Təhsil Nazirliyinin şəhadətnaməsi);
   - şəxsiyyəti təsdiq edən sənədin surəti;
   - fəlsəfə doktoru (elmlər namizədi) diplomunun surətinin notarial qaydada təsdiqi (elmlər doktoru proqramı üzrə sənəd verənlər üçün).
3. Fəlsəfə doktoru proqramı üzrə doktoranturanın əyani və qiyabi şöbələrinə qəbul olunmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.
4. Hər imtahan başa çatdıqdan sonra onun nəticəsi elan olunur. Birinci imtahandan kafi qiymət alan şəxslər növbəti imtahanlara buraxılır.
5. Doktoranturaya və dissertanturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli 129 nömrəli doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydalarına müvafiq olaraq aparılır.
6. Doktorantura və ya dissertanturaya sənədlərin qəbulu 05 dekabr 2018-ci il tarixdən 28 dekabr 2018-ci il tarixədək həftənin I-V günləri saat 10:00-dan 16:00-dək aparılacaqdır.
7. Qəbul imtahanları isə 08 yanvar 2019-ci il tarixdən başlanacaqdır.

**Ünvan:** Bakı şəh., İstiqlaliyyət küçəsi 6, UNEC-in Əsas binası, Doktorantura şöbəsi (otaq 414).

**Telefon:** 492-88-87

***Rektorluq***

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
## BAKI DÖVLƏT UNİVERSİTETİ

MARTİN LÜTER ADINA HALLE-WITTENBERG UNİVERSİTETİ (MLU) ilə birlikdə imzaladığı müqaviləyə əsasən

fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün ikili diplom proqramı çərçivəsində 5608.01 Mülki hüquq, sahibkarlıq hüququ, ailə hüququ, beynəlxalq xüsusi hüquq ixtisası üzrə **2 yer** olmaqla **əyani** doktoranturaya

## QƏBUL ELAN EDİR

**Sənəd qəbulu 05.12.2018-ci il tarixdən 04.01.2019-cu il tarixədək BDU-nun Magistratura və doktorantura şöbəsində aparılacaqdır. Qəbul qaydaları haqqında məlumatı www.bsu.edu.az internet səhifəsindən əldə etmək olar.**

**Əlaqə telefonu: +994 12 539-06-71**

***Rektorluq***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Baş Qərvənd, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

### Düzəliş

"Azərbaycan" qəzetinin 4 dekabr 2018-ci il sayında Azərbaycan Dövlət Pedaqoji Universitetinin elanında soldan 18, 19, 20-ci sətirlər səhvən təkrarlanmışdır.

***Rektorluq***

### Bildiriş

Azərbaycan Dövlət Aqrar Universitetinin 23.10.2018-ci il tarixdə dərc olunan avadanlıqların alınması üzrə açıq tender elanında açılış tarixi 06.12.2018-ci il tarixinə dəyişdirilmişdir.

***Tender komissiyası***

# Beynəlxalq aləm
HADİSƏLƏR, FAKTLAR

## ABŞ-ın 5-ci donanmasının komandanı intihar edib



Bəhreyndə dünyasını dəyişmiş ABŞ hərbi dəniz qüvvələrinin 5-ci donanmasının komandanı, vitse-admiral Skott Stirninin ölümünün səbəbi intihar olmuşdur. Bu barədə hərbi dairələrdəki mənbəyə istinadən CNN telekanalı xəbər verir.

Digər təfərrüatlar barədə məlumat verilmir.

Dekabrın 2-də ABŞ HDQ məlumat yaymışdı ki, vitse-admiral Skott Stirni Bəhreyn Krallığının ərazisindəki iqamətgahında ölü tapılmışdır. ABŞ və Bəhreyn hökumətləri bununla bağlı təhqiqata başlamışdır. Meyitin üzərində zorakılıq əlamətləri aşkar olunmamışdır.

Stirninin səlahiyyətlərini onun keçmiş müavini, kontr-admiral Pol Şliz icra edəcək.

ABŞ 5-ci donanmasının operativ məsuliyyət zonasına İran körfəzi və Hind okeanının bir hissəsi daxildir. Donanmanın bazası Bəhreyndə yerləşir.

## İranda fəhlələrin tətili davam edir



İRNA agentliyinin xəbərinə görə, Əhvaz şəhərində poladtökmə zavodunun fəhlələri, habelə Şuş şəhərində şəkər zavodunun işçiləri aylarla əməkhaqqı almadıqlarına görə tətilə başlamışlar. Abadan şəhərinin üç müxtəlif bələdiyyəsində fəhlələr maaşların gecikdirilməsinə etiraz əlaməti olaraq meriya binasının qarşısında toplaşmışlar.

Həmidiyyə şəhərində fəhlələr doqquz aydır məvacib almırlar. Orada təxminən 20 nəfər tətil təşkil etmişdir. Endika şəhərində Abeşdan bələdiyyəsinin fəhlələri meriya binasının qarşısında gecikdirilən əməkhaqlarını ödəməyi tələb edirlər. Əhvazda fəhlələr artıq 19 aydır maaş almırlar. Poladtökmə zavodunun fəhlələrinin tətili artıq 24 gündür davam edir.

Küçəyə çıxan fəhlələr Tehran rəhbərliyinin əleyhinə şüarlar səsləndirmişlər. Şuş Şəkər Zavodunun fəhlələri nümayişlər zamanı saxlanılan yoldaşlarını azadlığa buraxmağı tələb edirlər.

## "Koza Nostra"nın lideri və daha 45 mafiozu tutuldu



Siciliyada "Koza Nostra"nın başçısı Settimino Mineo və İtaliyanın ən məşhur cinayətkar qruplaşmasının daha 45 üzvü həbs edilmişdir. Bu barədə ANSA agentliyi xəbər verir.

Strukturun üzvlərinə mafioz fəaliyyət, pul qoparmaq, qanunsuz silah gəzdirmək və digər ağır cinayətlərlə bağlı ittihamlar irəli sürülmüşdür.

Bildirilir ki, Palermo vilayətində polisin həyata keçirdiyi həbslər uzun sürən xüsusi əməliyyatın yekunu olmuşdur. 80 yaşlı Mineo ötən ilin noyabrında mafiyanın əvvəlki başçısı, ömürlük həbs cəzası çəkən Toto Riinanın ölümündən sonra "Koza Nostra"ya başçılıq edirdi.

Xatırladaq ki, bu ilin yanvarında Siciliyada hüquq mühafizə orqanlarının əməkdaşları genişmiqyaslı xüsusi əməliyyat zamanı mafioz tayfanın 40 üzvünü saxlamışdır. Onlar bir sıra cinayətlərdə ittiham edilir.

## Kolumbiya Venesuelanı küncə sıxışdırmaq istəyir



Kolumbiya Prezidenti İvan Duke bildirmişdir ki, Venesuela rejimini diplomatiya vasitəsilə küncə sıxışdırmaq lazımdır. O, bu bəyanatı Kolumbiyanın Todelar radiostansiyasına müsahibəsində səsləndirmişdir.

Duke vurğulamışdır ki, "Venesuelada diktaturanı diplomatik vasitələrlə küncə sıxışdırmaq və demokratik keçidin reallaşmasına nail olmaq çox vacibdir". Kolumbiya lideri həmçinin həmvətənlərini venesuelalı miqrantlara münasibətdə ksenofobiya təzahürlərindən imtina etməyə çağırmışdır.

Son illər Venesuela milli valyutanın devalvasiya və hiperinflyasiyası ilə müşayiət olunan kəskin sosial-iqtisadi böhran yaşayır. Parlamentin məlumatına görə, bu ilin yanvarından oktyabr ayınadək inflyasiya 287 min faiz təşkil etmişdir. Beynəlxalq Valyuta Fondunun proqnozuna görə, ilin sonu üçün inflyasiya 1 milyon faizə çata bilər. BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının İdarəsi və Beynəlxalq Miqrasiya Təşkilatı bildirmişdir ki, dünyada venesuelalı qaçqın və miqrantların sayı 3 milyon nəfərə çatmışdır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıtdan Zakir Fərəcov Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Nərimanov Rayon Məhkəməsinin sabiq hakimi

**TURQAY HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Nazim Tağıyev YAP Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Nazim Tağıyev və məhkəmənin kollektivi Nərimanov Rayon Məhkəməsinin sabiq hakimi

**TURQAY HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin sabiq hakimi

**TURQAY HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Ələsgər Əliyevə qardaşı

**HƏSƏNALI ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Çingiz Əsədullayev və Əkrəm Abdullayev Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8412
Sifariş 3619